# EVDƏ QAL, SAĞLAM QAL!

## Bölgələrin inkişafı dövlətin diqqət mərkəzindədir



Bax 6

## Avstraliya separatçıların qondarma seçkisini tanımır



Bax 12



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 089 (6054) 1 iyun 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# İlham Əliyev: "Mən tam əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək"

Bax 2



*"Biz öz tarixi keçmişimizi yaxşı bilirik və yaxşı bilirik ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır"*

## "Sosial şəbəkələr bir çox hallarda insan hüquqlarının pozulması, şəxsiyyətin mənəvi terrora məruz qalması, ləyaqətinin alçaldılması vasitəsinə çevrilib"



*Baş nazirin müavini, YAP Sədrinin müavini - icra katibi Əli Əhmədov özünün rəsmi facebook səhifəsində yayımladığı "İnternet resurslarının hüquqi tənzimlənməsi problemi" sərlövhəli məqaləsinin aktuallığını nəzərə alaraq, onu oxucularımızın diqqətinə təqdim edirik...*

Bax 9

## "Uzun illər ABŞ-ın başqa ölkələrdə səpdiyi toxumlar indi özündə cücərir"

Bax 9



"Uzun illər ABŞ-ın digər ölkələrdə səpdiyi toxumlar indi özündə cücərir". SİA-nın xəbərinə görə, bunu Milli Məclisin deputatı Siyavuş Novruzov parlamentin dünən keçirilən plenar iclasında çıxış edərkən deyib.

## Diqqət: Siqaret çəkənlərin koronavirusa yoluxma riski çoxdur!



Bax 16

**Tütün məhsullarından istifadə edənlərin koronavirusa yoluxma riski çəkməyənlərdən dəfələrlə çoxdur. Xezerxeber.az xəbər verir ki, bu barədə TƏBİB-in məlumatında bildirilib. Məlumatda qeyd olunub...**

## Paşinyan: Ermənistanda koronavirusla əlaqədar vəziyyət ağırdır



Bax 12

Ermənistanda koronavirusa yoluxduğu təsdiq olunan 400-dən çox pasiyentin vəziyyəti ağır və ya son dərəcə ağırdır. SİA məlumatına görə, bu barədə ölkənin baş naziri Nikol Paşinyan bildirib. "Koronavirusa yoluxmuş 358 pasiyent ağır vəziyyətdədir, 58 nəfərin vəziyyəti son dərəcə ağırdır. 15 insan süni nəfəs aparatına...

## Sosial şəbəkələr nəzarətə götürülür





*Bu gün soaial şəbəkələr həyatımızın ayrılmaz hissəsinə çevrilib. Bir növ insan həyatını, yaşamını sosial şəbəkələrsiz təssəvvür etmək mümükünsüzdür...*

Bax 12

## "Prezident tarixçilər, ictimai fəallar qarşısında yeni vəzifələr müəyyənləşdirdi"



Bax 12

## Azərbaycanda bələdiyyə sədrinin qanunsuz əməlləri ifşa olundu



Bax 13

## 64 yaşlı Hollivud ulduzu gənc qadınla evlənir



Bax 16

# İlham Əliyev: “Mən tam əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək”

*“Biz öz tarixi keçmişimizi yaxşı bilirik və yaxşı bilirik ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır”*



*“Əgər o vaxt Azərbaycanın başında Heydər Əliyev olsaydı, heç vaxt bir qarış torpaq da düşmən tərəfindən işğal edilə bilməzdi”*





Bakının Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış “Qobu Park-3” yaşayış kompleksinin mayın 28-də açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev və “Paşa Holding” şirkətinin nümayəndəsi, layihə rəhbəri Kamil Əliyev dövlətimizin başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təməli ötən ilin iyulunda qoyulan kompleksdə yaradılan şərait barədə məlumat verdilər. Bildirildi ki, sifarişçisi “Paşa Holding”, podratçısı isə “Kristal Abşeron” MTK olan yeni qəsəbə Lökbatanda istifadəyə verilən “Qobu Park-1” və “Qobu Park-2” yaşayış komplekslərinin yanında inşa edilib. Bütün bu yaşayış komplekslərinin inşası Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilib. Qeyd edildi ki, məcburi köçkünlər üçün salınan bu yaşayış komplekslərinin yeri əvvəllər baxımsız sahə olub. Burada yaşamaq üçün heç bir sosial infrastruktur mövcud olmayıb. 2018-ci ildə bu ərazidə “Qobu Park-1”, ötən il isə “Qobu Park-2” yaşayış kompleksləri istifadəyə verilib. Birinci yaşayış kompleksində 1026 ailəlik doqquzmərtəbəli 11 yaşayış binası, ikinci yaşayış kompleksində isə 1300 ailəlik onmərtəbəli 13 bina inşa olunub. Bu komplekslərin ərazisində məktəblər, uşaq bağçaları, poliklinika, tibb, poçt məntəqələri, idman zalları və digər zəruri sosial infrastruktur obyektləri yaradılıb. “Qobu Park-3” yaşayış kompleksində onmərtəbəli 13 yaşayış binası inşa olunub.

Dövlətimizin başçısına və birinci xanıma ərazidə özəl şirkətlər tərəfindən inşa olunan yaşayış kompleksi barədə də məlumat verildi. Bildirildi ki, burada 2 bina inşa olunur və bu binalarda 100-ə yaxın mənzil olacaq. Kompleksin ərazisində 280 yerlik uşaq bağçası inşa olunub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva uşaq bağçasında yaradılan şəraitlə tanış oldular.

Məlumat verildi ki, bağçada balacalara bilik öyrətməklə yanaşı, onların istedadlarını üzə çıxarmaq, potensiallarını aşkarlamaq üçün hərtərəfli imkan var. Qeyd edək ki, gələcəyimiz olan körpələrin sağlam və bilikli böyüməsi üçün son illərdə dövlət səviyyəsində və Heydər Əliyev Fondu tərəfindən olduqca əhəmiyyətli layihələr icra olunur. Bütün bunlar göstərir ki, ölkədə həyata keçirilən strategiyanın əsas prioritetlərindən biri də uşaqların sağlam, firavan böyüməsi, gələcəklərinin tam təmin olunmasıdır. Həyata keçirilən bütün bu mühüm layihələr uşaqların sosial müdafiəsinin daha da möhkəmləndirilməsi istiqamətində Azərbaycanda aparılan siyasətin uğurlu və ardıcıl olduğunu nümayiş etdirir. Dövlətimizin başçısı və birinci xanım kompleksdə inşa olunan Füzuli rayon 4 saylı tam orta məktəbində yaradılan şəraitlə də tanış oldular. Bildirildi ki, 960 yerlik məktəb binası zəruri tədris avadanlığı ilə təchiz edilib, şagirdlərin yüksək səviyyədə təhsil alması üçün hərtərəfli imkan yaradılıb.

Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə təhsil sahəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni təhsil ocaqlarının inşası, mövcud məktəb binalarının müasir səviyyədə yenilənməsi baxımından çox mühüm layihələr icra olunub. Dövlət səviyyəsində bu istiqamətdə görülən işlərə birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da böyük töhfələr verib. Belə müasir məktəb binasının inşası bir daha göstərir ki, ölkədə təhsilin inkişafı istiqamətində atılan addımlardan doğma yurdlarından didərgin düşən soydaşlarımız da yüksək səviyyədə bəhrələnirlər.

Ardı Səh. 3

facebook

# İlham Əliyev: “Mən tam əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək”

*“Biz öz tarixi keçmişimizi yaxşı bilirik və yaxşı bilirik ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır”*



*“Əlbəttə ki, biz heç vaxt unutmamalıyıq ki, Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri İrəvanı, bizim qədim şəhərimizi Ermənistana vermək idi. Bunu heç cür əsaslandırmaq və heç vaxt bağışlamaq olmaz”*

**Əvvəli-Səh-2**

Sonra Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin layihəsi olan “Xarı bülbül” xalçaçılıq və naxış emalatxanası haqqında məlumat verildi.

“Qobu Park-3” yaşayış kompleksində inşa olunan mənzillərlə tanışlıq zamanı dövlətimizin başçısına və birinci xanıma məlumat verildi ki, kompleksdəki mənzillərin ümumi sayı 1336-dır. Onların 156-sı bir, 580-i iki, 384-ü üç, 216-sı dördotaqlıdır. Bütün mənzillər mətbəx mebeli, soyuducu, fərdi kombi sistemi ilə təchiz edilib. Bu kompleksə, əsasən, Yasamal rayonundakı yataqxanalarda məskunlaşan məcburi köçkünlərin köçürülməsi nəzərdə tutulub. Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya kompleksdə reallaşdırılan iki biznes layihəsi barədə də məlumat verildi. Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva məcburi köçkünlərlə görüşdülər. Dövlətimizin başçısı görüşdə çıxış etdi:



“Bu gün biz Respublika Gününü qeyd edirik. Sizi və bütün Azərbaycan xalqını Respublika Günü münasibətilə təbrik edirəm. Bu bayram günündə məcburi köçkünlər üçün salınmış “Qobu 3” yaşayış kompleksinin açılışını qeyd edirik. Burada bütün şərait yaradılıb. İndi mən şəraitlə tanış oldum, ən yüksək səviyyədə işlər görülüb. “Qobu Park-3” bu qəsəbədə salınmış üçüncü böyük yaşayış kompleksidir. “Qobu Park-3” kompleksində 1336 məcburi köçkün ailəsi yerləşəcək. 960 şagirdlik məktəb, - özü də çox gözəl məktəbdir, - fəaliyyət göstərəcək və böyük uşaq bağçası artıq tikilib, istifadəyə hazırdır. Bütövlükdə Qobu qəsəbəsində 3 layihədə toplam 3700-ə yaxın məcburi köçkün ailəsi yerləşdiriləcəkdir.

“Qobu-1” və “Qobu-2” layihəsi artıq 2018-ci və 2019-cu illərdə istifadəyə verilib. Bildirməliyəm ki, bu şəhərciklərin tikintisinin təşəbbüskarı Mehriban xanım olub və 2017-ci ildə onun iştirakı ilə burada təməl daşı qoyulub. O vaxt bura boş ərazi idi, heç nə yox idi və demək olar ki, 3 il ərzində ardıcıllıqla burada gözəl bir şəhər yaradılıb. Çünki bu 3 şəhərcikdə toplam 20 minə yaxın insan yaşayacaq və bu, bir daha onu göstərir ki, əgər iradə varsa, əgər siyasət düzgün aparılırsa və əgər insanların ürəyində ən ülvi hisslər reallıqda öz əksini taparsa, istənilən təşəbbüs, istənilən gözəl ideya həyata keçər. Beləliklə, boş bir ərazidə böyük infrastruktur layihələri icra edildi. Çünki bütün bu binaların kommunikasiyaları, təchizatı ən yüksək səviyyədə təşkil edildi - su, qaz, elektrik enerjisi, daxili yollar, nəqliyyat məsələləri öz həllini tapdı. Burada, eyni zamanda, tibb məntəqəsi, ticarət yerləri, iş yerləri yaradılıb, - bu da nəzərə alınıb, - çünki burada yaşayacaq vətəndaşlar artıq burada işlə də təmin ediləcək. Xüsusilə qadınlar üçün burada xalçaçılıq emalatxanası fəaliyyət göstərəcək və digər istehsalyönümlü kiçik müəssisələr artıq fəaliyyətə hazırdır. Nəzərə alsaq ki, burada yaşayacaq insanlar uzun illər çox ağır vəziyyətdə yaşayıblar, - bugünkü təqdimatda onların indiki yaşayış yeri göstərilir, - əlbəttə ki, bu, ailələrə böyük sevinc bəxş edəcək.

Bu qəsəbənin xüsusiyyəti ondan ibarətdir ki, burada bütün işlər özəl sektor tərəfindən görülmüşdür. Bu da çox sevindirici haldır. Şadam ki, mənim bir neçə il bundan əvvəlki çağırışımdan sonra özəl sektor artıq bu önəmli sosial layihələrə də qoşuldu. O vaxt mən özəl sektoru bu işlərə dəvət etmişdim və şadam ki, mənim çağırışım cavabsız qalmayıb. Bütün tikinti işləri, bütün investisiyalar özəl sektor tərəfindən təmin edilibdir. Burada xüsusilə Paşa Holdinq şirkətinin fəaliyyətini qeyd etmək istəyirəm. Bu şirkət çoxşaxəli fəaliyyətlə məşğuldur. Bu şirkətin bütün dövrlərdə sosialyönümlü layihələri təqdirəlayiqdir. Onu da bildirməliyəm ki, heç bir reklam etmədən, necə deyərlər, özünü tərifləmədən bu işləri ardıcıl şəkildə görür. Bu gün koronavirus şəraitində Paşa Holdinq şirkəti və digər özəl şirkətlər ehtiyacı olan insanların yanındadırlar. Bu böyük tikinti layihəsi bir daha onu göstərir ki, biznesin sosial məsuliyyəti artır. Şadam ki, bu təşəbbüsə digər özəl şirkətlər qoşuldu və bu yaxınlıqda digər şirkətlər tərəfindən iki bina tikilir. Ümid edirəm ki, bizim başqa şirkətlərimiz də bu işə qoşulacaqlar. Çünki Azərbaycanda bir çox böyük şirkətlər, holdinqlər var.

*Ardı Səh. 4*

# İlham Əliyev: “Mən tam əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək”

*“Biz öz tarixi keçmişimizi yaxşı bilirik və yaxşı bilirik ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır”*



Əvvəli-Səh-3

Onlar Azərbaycanda pul qazanırlar, ölkəmizdə hökm sürən sabitlikdən, biznesə göstərilən dəstəkdən faydalanırlar. Əlbəttə ki, onların sosial məsuliyyəti də lazımi səviyyədə olmalıdır. Ona görə bu yaşayış komplekslərinin tikintisi rəmzi xarakter daşıyır. Birinci növbədə dövlət öz iradəsini ortaya qoyur. Bildiyiniz kimi, məcburi köçkünlərin problemlərinin həlli Prezident kimi mənim ən başlıca vəzifələrimdən biridir. Digər tərəfdən, özəl sektor artıq sosial məsuliyyət göstərərək belə gözəl imkanlar yaradır. Nəzərə alsaq ki, ümumiyyətlə Azərbaycanda 300 mindən çox məcburi köçkün bu günə qədər mənzillərlə, fərdi evlərlə təmin olunub və onlardan təqribən 20 mini bir şirkət tərəfindən görülmüş işlər nəticəsində evlərlə təmin edilir.

Məcburi köçkünlərin problemləri ardıcıl şəkildə öz həllini tapır. Bildiyiniz kimi, hələ 2003-cü ildə prezident seçkiləri ərəfəsində mənim proqramımın tərkib hissəsi məhz bu məsələ idi. Söz vermişdim ki, beş il ərzində Azərbaycanda bir dənə də olsun çadır şəhərciyi qalmayacaq və nəinki 5 il, 4 il ərzində biz buna nail olduq. Çox böyük uğur idi. Çünki ölkəmizin demək olar ki, bütün yerlərində çadır şəhərcikləri var idi, köçkünlər çox yararsız vəziyyətdə yaşayırdılar, eyni zamanda, uzun illər vaqonlarda, vaqonların altında, çadırlarda yaşayırdılar. Çadır şəhərciklərinin ləğv olunması hesab edirəm ki, bizim çox böyük uğurumuzdur və indiyədək 100-dən çox qəsəbə-şəhərcik salınıb. Son bir neçə il ərzində dünyada iqtisadi və maliyyə böhranı hökm sürür. Son 4-5 il ərzində neftin qiymətinin bir neçə dəfə kəskin düşməsinin şahidi olmuşuq. Buna baxmayaraq, məcburi köçkünlərlə bağlı olan heç bir layihədə heç bir yubanma yoxdur, heç bir proqramın ixtisarı nəzərdə tutulmur. Keçən il məcburi köçkünlər üçün rekord sayda evlər-mənzillər tikildi - 5 minə yaxın. Bu il qarşıya hədəf qoyulub ki, 7 min, bəlkə də 8 min məcburi köçkün ailəsi evlərlə, mənzillərlə təmin edilsin. Əgər biz buna nail olsaq, bir il ərzində həm Bakı şəhərində, Sumqayıt şəhərində və digər şəhərlərdə təqribən 40 minə yaxın insan yeni evlərə köçürüləcək. Bu işlər ardıcıllıqla aparılır. Biz gələn ilin İnvestisiya Proqramında da bu məqsədlər üçün vəsait ayıracağıq.

Eyni zamanda, məcburi köçkünlərin sosial təminatı yaxşılaşır. Keçən il köçkünlərə verilən müavinətin həcmi 50 faiz artmışdır. Hər bir məcburi köçkün uzun illər ərzində dövlət tərəfindən aylıq müavinətlə təmin edilir. Əlbəttə, indi dünyada bir neçə ölkədə məcburi köçkünlər vardır və bu ölkələrin sayı artır. Çünki müharibələr, toqquşmalar geniş vüsət alır, yeni köçkün şəhərcikləri salınır. Ancaq hesab edirəm ki, Azərbaycanda bu sahəyə göstərilən diqqət nümunəvi xarakter daşıyır, beynəlxalq təşkilatlar da bunu dəfələrlə təsdiqləyiblər. Çünki biz köçkünləri belə gözəl evlərlə təmin edirik. Evlərin həm quruluşu, həm daxili dizaynı, təchizatı göz oxşayır. Azərbaycan bu sahədə də qabaqcıl yerlərdədir və hesab edirəm ki, bu, bizim borcumuzdur, bunu biz edirik və edəcəyik.

Ancaq onu da bilməliyik və bütün Azərbaycan xalqı bilməlidir ki, bu, sizin üçün müvəqqəti yaşayış yeridir. Torpaqlarımız işğaldan azad ediləndən sonra biz bu gün hələ də işğal altında olan torpaqlarda buna oxşar gözəl binalar, şəhərciklər tikəcəyik, ermənilər tərəfindən dağılmış şəhərlərimizi yenidən quracağıq. Ermənilər tərəfindən dağıdılmış və məhv edilmiş milli irsimiz sənədləşdirilib. Biz öz tarixi keçmişimizi yaxşı bilirik və yaxşı bilirik ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. İşğal olunmuş torpaqlar azad ediləndən sonra bütün binalar yenidən qurulacaq, o cümlədən dağılmış tarixi abidələrin mövcudluğunu əks etdirən əməli memarlıq tədbirlərinin görülməsi də nəzərdə tutulur.

Mən tam əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, bunu deməyə əsas verən bir çox amillər var - bizim hərbi gücümüz və biz bunu göstərmişik. 2016-cı və 2018-ci illərdə uğurlu hərbi əməliyyatlar nəticəsində minlərlə hektar torpaq işğalçılardan azad edildi. Cocuq Mərcanlı kəndinin timsalında biz görürük ki, işğaldan azad olunacaq digər torpaqlarda hansı işlər görüləcək və hansı sürətlə görüləcəkdir. Biz Cocuq Mərcanlını uğurlu hərbi qələbədən sonra cəmi bir il ərzində yenidən qurduq və indi orada həyat qaynayır, köçkünlər öz doğma torpağına qayıdıblar. Bəzən belə fikirlər səsləndirilir ki, bəzi köçkünlər torpaqlar işğaldan azad olunandan sonra qayıtmaya bilərlər. Amma mən tam əminəm ki, bütün köçkünlər öz doğma torpaqlarına qayıdacaqlar, necə ki, Cəbrayıl köçkünləri. Onlar uzun illər başqa yerlərdə yaşayıblar, o cümlədən Bakı şəhərində. Ancaq imkan olan kimi onlar hətta növbəyə durmuşdular ki, tezliklə öz doğma torpağına qayıtsınlar. Eyni zamanda, işğaldan azad olunan Şıxarx qəsəbəsi. İndi orada da böyük şəhərcik salınıb. O, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində yerləşən Azərbaycanın tarixi məkanıdır, işğaldan azad olunan ərazidə böyük şəhərcik salınıb. Biz bu gün işğal altında olan bütün digər torpaqlarda da bərpa işləri görəcəyik. Azərbaycan öz suverenliyini təmin edəcəkdir.

Yenə də deyirəm, hərbi güc, bizim beynəlxalq mövqelərimiz, beynəlxalq təşkilatların münaqişə ilə bağlı sərgilədiyi mövqe. Xüsusilə son illər ərzində demək olar ki, bütün beynəlxalq təşkilatlar ölkəmizin ərazi bütövlüyünü qətiyyətlə dəstəkləyir, dünyanın bütün aparıcı ölkələri, həmçinin. Bu yaxınlarda Dağlıq Qarabağda keçirilmiş qondarma “prezident seçkiləri” bunu bir daha göstərdi. O saxta prezidenti, dırnaqarası prezidenti heç kim tanımadı. Dünyanın aparıcı ölkələri açıq formada bəyanat verdilər. ATƏT-in Minsk qrupunun həmsədrləri - Amerika, Fransa, Rusiya, ondan sonra Avropa İttifaqı, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti və digər təşkilatlar bəyanat verdilər ki, bu seçkilər tanınmır, Dağlıq Qarabağ Azərbaycan torpağıdır. Ona görə beynəlxalq hüquq, hərbi qüdrətimiz, eyni zamanda, iqtisadi üstünlüyümüz, əlbəttə ki, torpaqlarımızın azad olunmasında əsas rol oynayacaqdır. Danışıqlar öz yerində, ancaq indi dünyada siz də yaxşı görürsünüz ki, güc amili ön plana çıxır, bəzi ölkələr, hətta böyük demokratik ənənələri olan ölkələr də bəzi hallarda beynəlxalq hüquqa məhəl qoymadan öz maraqlarını təmin edirlər. Nəyin hesabına? Gücün hesabına. Ona görə ordu quruculuğu mənim Prezident kimi fəaliyyətimdə həmişə ön plandadır. Bu gün biz elə bir qüdrətli ordu yaratmışıq ki, istənilən vəzifəni icra edə bilərik. Əlbəttə ki, sadaladığım bütün bu müsbət amillər, eyni zamanda, demoqrafik vəziyyət bizim üstünlüyümüzü bundan sonra da təmin edəcək. Dağlıq Qarabağ probleminin həlli tarixi məsələdir və biz bu məsələni birdəfəlik və tam həll etməliyik. Azərbaycanın ərazi bütövlüyü tam bərpa olunmalıdır. Bu gün müzakirə edilən və danışıqlar masasında olan məhz mərhələli həldir. Baxmayaraq ki, Ermənistanın rəhbərliyi öz rəsmi populist çıxışlarında bunu inkar etməyə çalışır, ancaq mahiyyət etibarilə danışıqlar çərçivəsində həmin bu mərhələli həll məsələsi müzakirə edilir. Burada da riyakarlıq edir, öz xalqını aldadır, vasitəçiləri aldatmaq istəyir. Mərhələli həldən başqa heç bir həll mümkün deyil, o da nə deməkdir? Birinci mərhələdə torpaqların bir hissəsi işğaldan azad olunur. Bundan başqa variant ola bilməz. Amma mənim dediyim söz odur ki, bu, ancaq mərhələli yanaşma ola bilər. Bizim məqsədimiz, əsas amalımız suverenliyimizi tam və birdəfəlik təmin etməkdir və biz bunu edəcəyik. Heç kimdə şübhə olmasın. Sadəcə, daha güclü olmalıyıq, məsələnin həlli üçün vaxtı və geosiyasi vəziyyəti düzgün qiymətləndirməliyik. Mənim fikrim budur və bilirəm ki, Azərbaycan xalqı mənim mövqeyimi dəstəkləyir. Mən bunu dəfələrlə bildirmişəm və bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ məsələsi ancaq ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi.

Ancaq yenə də bu məsələ ilə məşğul olanda hər zaman mən keçmişə qayıdıram, tarixə qayıdıram və sual verirəm. Nə üçün torpaqlarımız işğal altına düşdü? Necə oldu ki, biz bu torpaqları qoruya bilmədik? Necə oldu ki, ermənilər xarici dəstəyin hesabına torpaqları işğal etdilər, insanları öz doğma torpaqlarından didərgin saldılar? Mən bu suallara cavabı bilirəm və Azərbaycan xalqı da bilir. Amma yenə də həmişə fikirləşirəm ki, əgər o vaxt Azərbaycanın başında Heydər Əliyev olsaydı, heç vaxt bir qarış torpaq da düşmən tərəfindən işğal edilə bilməzdi. Çünki onun dövründə Azərbaycan hakimiyyəti Dağlıq Qarabağda elə bir möhkəm iradəyə sahib idi ki, bir nəfər erməni də səsini çıxara bilmirdi. Düzdür, Moskvaya, Siyasi Büroya donoslar yazırdılar ki, guya onları orada incidirlər və yaxud da onlar diskriminasiyaya uğrayırlar. Hamısı yalan idi. Çünki iqtisadi göstəricilər var, onlar göstərir ki, Dağlıq Qarabağda yaşayan insanlar heç də Azərbaycanın o biri torpaqlarında, rayonlarda yaşayan insanlardan pis yaşamayıblar. Ancaq Heydər Əliyevin qətiyyəti, iradəsi, cəsarəti imkan vermirdi ki, orada bir dənə də olsun hadisə baş versin. Ondan əvvəl - 1960-cı illərdə hadisələr baş verib. Ancaq Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başlayandan sonra və Bakıdan Moskvaya gedənə qədər orada heç bir hadisə olmayıb. Mən şəxsən atamla birlikdə Dağlıq Qarabağda olmuşam, Xankəndidə, Şuşada. Mən o ab-havanı görmüşəm, 1980-ci illərin əvvəllərində həm qış aylarında, - o məşhur fotolar, videolar var, - həm də yaz aylarında. Orada - həm Xankəndidə, həm də başqa yerlərdə heç bir problem yox idi.

Ardı Səh. 5

# İlham Əliyev: “Mən tam əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək”

*“Biz öz tarixi keçmişimizi yaxşı bilirik və yaxşı bilirik ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır”*



*“Bizim məqsədimiz, əsas amalımız suverenliyimizi tam və birdəfəlik təmin etməkdir və biz bunu edəcəyik. Heç kimdə şübhə olmasın. Sadəcə, daha güclü olmalıyıq, məsələnin həlli üçün vaxtı və geosiyasi vəziyyəti düzgün qiymətləndirməliyik. Mənim fikrim budur və bilirəm ki, Azərbaycan xalqı mənim mövqeyimi dəstəkləyir”*

**Əvvəli-Səh-4**

Mənim gözümün qabağında ermənilər Heydər Əliyevin qarşısında fərəqət durmuşdular, onu salamlayırdılar. Orada Azərbaycan dilində poeziya günü keçirilmişdir. Erməni, Azərbaycan şairləri Azərbaycan dilində şeirlər deyirdilər. Heydər Əliyevin qətiyyəti, iradəsi, cəsarəti, müdrikliyi imkan vermirdi ki, bir dənə də erməni baş qaldırsın. Şuşada olan zaman o qədim Azərbaycan şəhərinin tarixini görərkən biz bir daha gördük ki, bizim nə qədər böyük tarixi irsimiz var. Yadımdadır, Ulu Öndər ev-muzeyləri, Üzeyir Hacıbəylinin ev-muzeyi haqqında və digər göstərişlər vermişdi ki, Azərbaycan mədəniyyəti orada daim yaşasın. Ermənilər və burada yerli satqınlar Heydər Əliyev Moskvada işləyəndə donoslar, anonim məktublar yazırdılar. Aydın məsələdir ki, Heydər Əliyev amili qoymurdu ki, ermənilər baş qaldırsınlar. Buradakı satqınlar, xainlər, Azərbaycan millətinin düşmənləri donos yazırdılar. İndikilər də yazırlar. O vaxt Siyasi Büroya yazırdılar. Bunlar isə bizdən Qərb ölkələrinə donos yazırlar. İndiki milli satqınlar dediyim o cinayətkar ünsür dəstəsi o vaxtın donos yazanlarından fərqlənmirlər. Onlar da özlərinə başqa ölkədə himayədar axtarırdılar, bunlar da. Onların da, bunların da əsas məqsədi hakimiyyətdir, nəyin bahasına olursa-olsun. Bax, buna görə torpaqlar işğal altına düşüb. Baxın, Heydər Əliyev Siyasi Bürodan, Sovet İttifaqının Nazirlər Sovetindən yüksək vəzifələrdən gedəndən sonra iki həftə keçməmiş nə baş verdi? Bir erməni millətçisi məqalə ilə çıxış etdi ki, Dağlıq Qarabağ Ermənistana verilməlidir. Özü də harada? Fransa qəzetində. Artıq erməni diasporu bu işlərə qoşulmuşdu. Sovet İttifaqının başında dayanan adamlar da öz ermənipərəst mövqeyi ilə fərqlənmişlər. Biz bunu yaxşı bilirik və artıq hərəkət başladı. O vaxt Azərbaycan hakimiyyəti nə etdi? 1987-ci ilin noyabrı idi. Heydər Əliyev vəzifədən gedəndə sonra cəmi iki həftə keçmişdi. Buradakılar neylədilər? Heç nə. Veclərinə də almadılar. Onlar elə bil ki, bu torpağın övladları deyildilər. Biganə qaldılar, reaksiya vermədilər. Vəziyyəti nəzarət altında saxlaya bilmədilər və nəticə etibarilə, çox da keçmədi, təxribat törədildi. Bu tarixə bu nöqteyi-nəzərdən baxın. Cəmi 3-4 ay keçdi, 1988-ci ilin fevral ayında Sumqayıt təxribatı törədildi. Nə idi o təxribat. Erməni quldurları orada dəstə yaradıb bir neçə ermənini öldürüb bunu Azərbaycan xalqının ayağına yazdılar. Bu da tarixi faktlardır.

İstintaqı biz aparmamışıq. İstintaqı Moskvadan gələn istintaq qrupu aparırdı. Orada bilindi ki, bu dəstənin başında dayanan ermənidir. Onun təcavüz etdiyi şahidlər üzünə demişdilər, o kadrlar var. Onun qətlə yetirdiyi insanların qohumları, yaxınları demişdilər ki, bizi öldürən budur. Baxın, sonra nə olur? Bu adam həbs olunur, ona hökm verilir. Bir ildən sonra o cəza çəkmək üçün Ermənistana göndərilir. Ermənistanda nə edirlər? Onu buraxırlar. Yaxşı, bu adam erməniləri öldürüb, bu da təsdiq olunub, istintaq materialları var. Nə üçün siz onu buraxırsınız? Deməli, bu, bəri başdan qurulmuş təxribat idi. Bu təxribatı ermənilər törədiblər, sonra yıxıblar Azərbaycan xalqının üstünə. Bu da onlara fürsət verib ki, Dağlıq Qarabağ məsələsini qaldırsınlar. Bax, budur tarix. Azərbaycan hakimiyyəti nə edib? Heç nə. O vaxt Azərbaycanın başında duran adam bilmirdi ki, Moskvanın o çinovniklərinin dabanını necə yalasın. Budur milli rəzalət. Sovet İttifaqı dağılandan sonra bir neçə ay keçmədi, dərhal Xocalı soyqırımı törədildi. Azərbaycan hakimiyyəti öz vətəndaşlarını qoruya bilmədi. Xalqımıza qarşı qanlı cinayət, soyqırımı törədildi. Ondan bir neçə ay sonra - 1992-ci ilin may ayında Şuşa və Laçın işğal olundu. Kimdir günahkar? Azərbaycan Xalq Cəbhəsi. Bir nömrəli günahkar odur. Əlbəttə, ovaxtkı hakimiyyətin də günahı var. Çünki öz şəhərlərimizi qoruya bilmədi. Ancaq Azərbaycan Xalq Cəbhəsi hakimiyyətə gəlmək üçün xəyanət etmişdi. Şuşanın guya müdafiəsini təşkil edən adamlar satqınlıq edib, xəyanət edib, qaçıb gizlənmişdilər. Şuşa alınmaz qaladır. Onu almaq mümkün deyil. Az kontingentlə oranı illərlə müdafiə etmək olar, satdılar ki, hakimiyyəti yıxsınlar, hakimiyyətə gəlsinlər. Belə də oldu. Sonra Laçını da satdılar. Hakimiyyətə gəldilər. Onların əsas məqsədi hakimiyyətə gəlmək və olan-qalan sərvətləri talamaq idi.

Azərbaycan Xalq Cəbhəsinin cinayətkar əməlləri bununla bitmir. Ondan sonra onların yarıtmaz fəaliyyəti nəticəsində Kəlbəcər işğal olundu. Müdafiəni düzgün qura bilməmişdilər. Kim quracaqdı müdafiəni? Kim məşğul idi müdafiə ilə? Hərbi işdən heç bir xəbəri olmayan savadsız və xəyanətkar adamlar. Kim idi dövlətin başında? Xalq arasında heç bir hörməti olmayan boşboğaz. Kim gətirdi saldı bizim xalqımızı bu bəlaya? Onlar. O vaxt Heydər Əliyev olsaydı, qoyardımı ki, belə vəziyyət yaransın? Ona görə biz bunu bilməliyik. Kəlbəcər əldən gedəndən sonra neylədilər? Vəziyyəti bərpa etmək əvəzinə başladılar öz ordumuza qarşı mübarizəyə. Burada torpaqlar əldən gedir, onlar isə Gəncəni bombalayırdılar. Kəlbəcər, Laçın, Şuşa rayonları işğal olunandan sonra Dağlıq Qarabağla Ermənistan arasında bağlantı yarandı. Onlar isə Gəncəni bombalayırlar. Kim edib onu? Azərbaycan Xalq Cəbhəsi. Bu gün elə orada-burada fırlananlar da bu işdə əli olan cinayətkarlardır. Xalq da buna dözmədi, bunları süpürdü birdəfəlik atdı. Məhz ondan sonra Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəldi və vəziyyət sabitləşdi.

Budur səbəbkarlar, budur tarixi həqiqətlər. Bu gün vəziyyəti düzəltmək, torpaqları işğaldan azad etmək üçün nə qədər böyük səylər göstərilir. Ancaq Aprel döyüşləri və uğurlu Naxçıvan əməliyyatı göstərdi ki, Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər.

Bu gün Respublika Günüdür. Əlbəttə ki, Azərbaycan Xalq Cümhuriyyəti qürur mənbəyimizdir. Hər bir Azərbaycan vətəndaşı haqlı olaraq fəxr edir ki, müsəlman aləmində ilk respublika məhz Azərbaycanda yarandı, Azərbaycan xalqı bunun təşəbbüskarı olub. Eyni zamanda, biz bu gün də tarixdən ibrət götürməliyik. Nə üçün Respublika iki ildən də az yaşadı? Nə üçün süqut etdi? Nə üçün müstəqilliyi qoruya bilmədi? Bu suallardır. Biz düzgün nəticə çıxarmaq üçün tarixi bilməliyik. Burada heç bir mifologiyadan söhbət gedə bilməz. Hansısa hadisələri şişirtməklə biz özümüzü aldatmamalıyıq. Nə üçün? Çünki o hadisələr təkrarlanmasın. Nə üçün? Çünki müstəqilliyimiz əbədi olsun. Azərbaycan Xalq Cümhuriyyəti rus imperiyasının dağılması nəticəsində yaranmışdır. Ancaq cəmi iki ilə yaxın yaşadı. Çox önəmli addımlar atılmışdır. Müstəqillik elan olundu, dövlət atributları təsis edildi. Milli Ordu, Bakı Dövlət Universiteti yaradıldı, mütərəqqi qanunlar qəbul edildi. Amma, eyni zamanda, biz bilməliyik ki, o müstəqillik şərti xarakter daşıyırdı. Bakıda söz sahibi xarici generallar idi və Azərbaycan Xalq Cümhuriyyəti öz addımlarını, hətta dövlət atributları ilə bağlı planlarını gərək onlarla razılaşdıraydı. Respublika Azərbaycan ərazisinə tam nəzarət etmirdi. Əlbəttə ki, biz heç vaxt unutmamalıyıq ki, Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri İrəvanı, bizim qədim şəhərimizi Ermənistana vermək idi. Bunu heç cür əsaslandırmaq və heç vaxt bağışlamaq olmaz. Ona görə biz bu həqiqətləri bilməliyik və gənc nəsil də bilməlidir. Biz tarixi olduğu kimi yazmalıyıq və bilməliyik. Həqiqəti bilməliyik ki, bu, təkrarlanmasın. Xalq Cümhuriyyəti cəmi iki ilə yaxın yaşadı, müstəqilliyi qoruya bilmədilər. Azərbaycanın başında duranların bir çoxu ölkəni tərk etdi, müstəqillik əldən getdi. Bilirsiniz, gözəl şüarlar demək olar. Amma bu şüarların arxasında gərək iradə, güc və əməl olsun.

Bizim 1920-ci ildə endirilən üçrəngli bayrağımız 70 il sonra Heydər Əliyev Naxçıvanda yenidən qaldırdı. Gücün varsa, bayraq həmişə yüksəklərdə olacaq. O vaxt Naxçıvan Ali Sovetinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağı rəsmi bayraq kimi qəbul edildi. Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, onlar da eyni addımı atsınlar. Etmədilər. Çünki qorxurdular. O vaxt hələ Sovet İttifaqı dağılmamışdı. Qorxurdular ki, Moskvadan bunları tənbeh edəcəklər. Ona görə bu tarixi gün həmişə həm qürur mənbəyimiz olmalıdır, həm də daim yadda saxlamalıyıq ki, biz müstəqilliyi əbədi, dönməz etməliyik. Bunu kim etməlidir? Biz - Azərbaycan xalqı, Azərbaycan hakimiyyəti. Ona görə ölkəmizin gücləndirilməsi, mövqelərimizin möhkəmləndirilməsi, ölkəmizdə aparılan islahatlar iqtisadi, sosial sahədə, milli dəyərlərlə bağlı olan tədbirlərimiz, gənclərin milli ruhda tərbiyə olunması bu məqsədi güdür ki, bundan sonra Azərbaycan heç vaxt müstəmləkə olmasın, həmişə qürurlu, həmişə möhkəm ayaqda dayanan, müstəqil dövlət olsun və xalqımız həmişə azad olsun.”

# Bölgələrin inkişafı dövlətin diqqət mərkəzindədir

*Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxı rayonuna səfər ediblər*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 25-də Şamaxı rayonuna səfərə gəliblər. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım xalqımızın ümummilli lideri Heydər Əliyevin Şamaxı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyublar.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 25-də Şamaxı şəhərində Pirsaat Baba ziyarətgahının yenidən qurulması çərçivəsində görülən işlərlə tanış olublar. AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma tikinti-bərpa və yenidənqurma tədbirləri barədə məlumat verdi. Bildirdi ki, zəlzələ zamanı ziyarətgahın divarlarında çatlar əmələ gəlmişdi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Pirsaat Babanın məzarını ziyarət etdilər. Pirsaat Baba ziyarətgahı bütün ölkə əhalisinin ziyarət etdiyi müqəddəs ocaqlardan biridir və hər gün buraya yüzlərlə zəvvar gəlir. Ziyarətçilərin rahatlığını təmin etmək məqsədilə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə burada geniş yenidənqurma işlərinə başlanıb.

Qeyd edək ki, təxminən IX-XV əsrlər arasında tikilmiş türbə 1918-ci ildə Hacı Cəfərqulu tərəfindən yenidən ucaldılıb. Heydər Əliyev Fondu tərəfindən 2020-ci ildən başlanmış yenidənqurma işləri həm tarixi abidə, həm də müqəddəs ziyarətgah olan Pirsaat pirinin tamamilə yeni görkəmdə əhalinin ixtiyarına verilməsinə imkan yaradacaq.



Dini ziyarətgahlarımız da xalqımızın qürur doğuran keçmişinə, milli-mənəvi dəyərlərinə maksimum həssas münasibətinin əyani nümunələrindəndir. Azərbaycanın müasir tarixində müstəsna xidmətləri olan ulu öndər Heydər Əliyevin prinsipial və həsəd doğuran vətəndaşlıq mövqeyi, iradəsi, qətiyyəti, milli-mənəvi dəyərlərə dərindən bağlılığı nəticəsində ölkəmizdəki ziyarətgahlara yeni həyat verildi. Təsadüfi deyil ki, Ulu Öndərin müəyyənləşdirdiyi mükəmməl siyasi kursun layiqincə davam etdirilməsinə və daha da zənginləşdirilməsinə Prezident İlham Əliyevin xüsusi diqqəti sayəsində indi ziyarətgahların və dini məbədlərin yenidən qurulmasının miqyasına görə heç bir ölkə Azərbaycanla müqayisə edilə bilməz. Bu baxımdan Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da səylərini əsirgəmir, istər ölkəmizdə, istərsə də xaricdə silsilə layihələr reallaşdırır. Bunlardan biri də Şamaxı şəhərinin girəcəyində, Bakı-Şamaxı-Yevlax avtomobil yolunun kənarında, Pirsaat çayının sahilində yerləşən Pirsaat Baba ziyarətgahıdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 25-də Şamaxı rayonuna ayrılan nəqliyyat vasitələri və xüsusi texnikalara baxdılar.




AZƏRTAC xəbər verir ki, bir sıra sahələrdə, o cümlədən şəhər təsərrüfatı, kommunal, səyyar tibbi və digər sahələrdə xidmətin keyfiyyətini yaxşılaşdırmaq üçün Prezident İlham Əliyevin Sərəncamına uyğun olaraq Şamaxı rayonuna çoxlu sayda nəqliyyat vasitələri və xüsusi texnikalar ayrılıb.

Şamaxıya səfəri zamanı həmin nəqliyyat vasitələri və texnikalar dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyevaya təqdim olundu. Bildirildi ki, texnika və nəqliyyat vasitələri seçilərkən rayonun turizm potensialı, seysmik ərazidə yerləşməsi və landşaftı nəzərə alınıb. Rayonda sərnişindaşımanın lazımi səviyyədə təşkili üçün 10 avtobus ayrılıb. Rayonun kommunal təsərrüfatında bundan sonra məişət tullantıları daşıyan, küçə süpürən və yuyan, qartəmizləyən və digər müasir texniki vasitələrdən istifadə ediləcək. Şamaxının səhiyyə potensialına 3 təcili tibbi yardım avtomobili və 1 reanimasiya maşını əlavə olunacaq. Bundan başqa, rayonun bərpa-quruculuq və abadlıq işlərində istifadə etmək üçün çoxlu sayda ağır və yüngül tonnajlı yük maşını, ağır tonnajlı buldozer, çoxfunksiyalı ekskavator və digər texniki vasitələr ayrılıb. Bu təşəbbüs dövlət başçısının regionların daha da müasirləşməsi, şəhər, qəsəbə və kəndlərdə rahat həyat şəraitinin yaradılması üçün apardığı sosial-iqtisadi siyasətin daha bir əyani göstəricisidir.

Ölkənin başqa şəhərlərinin də belə texnika və nəqliyyat vasitələri ilə təchizatını təşkil etmək üçün təkliflər hazırlanması barədə tapşırıq verən Prezident İlham Əliyev dedi:

-Avtobuslar gərək bu gündən xətlərə çıxsın. Ondan sonra təcili tibbi yardım maşınları. Şamaxı rayonunun təchizatı ilə bağlı görülən işlər indiki mərhələdə kifayətdir. Həm Prezidentin ehtiyat fonundan, həm də dövlət büdcəsindən vəsait ayrıldı. Gərək biz prinsipcə bütün şəhərlərimizdə texnika ilə təchizatı yüksək səviyyəyə qaldıraq. Bu baxımdan Şamaxı birinci şəhərdir. Mən demişəm, digər şəhərlərdə, bir çox yerlərdə şəhər nəqliyyatı bərbad vəziyyətdədir. Kommunal texnikanın çatışmazlığı problemlər yaradır, təkliflər hazırlayın, bizim bütün şəhərlərimizdə müasir texnika təchizatı təmin edilməlidir - həm sərnişin nəqliyyatı, kommunal texnika, həm də təcili tibbi yardım maşınları. Bakı şəhərində bu, öz həllini tapıb. Baxmayaraq ki, Bakıda da hələ köhnədən qalan avtobuslar var, onlar da yavaş-yavaş yeniləri ilə əvəzlənir. Bir çox şəhərlərə təcili tibbi yardım maşınlarının göndərilməsi təmin edilmişdir. Ancaq vaxt keçir, onların da istismar müddəti başa çatır, sıradan çıxır, qəzaya uğrayır. İndi Şamaxı rayonunun timsalında biz prinsipcə görürük ki, əhalini nəzərə alaraq nə qədər texnika lazımdır.

*Ardı Səh. 7*

# Bölgələrin inkişafı dövlətin diqqət mərkəzindədir

*Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxı rayonuna səfər ediblər*



**Əvvəli-Səh-6**

Ona görə, digər rayonlarda da nə qədər texnika lazımdır, biz bunları kompleks şəkildə, tədricən həll edək.

Prezidentin köməkçisi Anar Ələkbərov: Oldu, cənab Prezident, aydındır.

Prezident İlham Əliyev: Mən göstəriş vermişdim ki, Şamaxı şəhərinin avtomobil yollarının da təmiri ilə bağlı tədbirlər görülsün. Kənd yollarının bir çoxu asfaltlanıb, hətta ucqar kəndlərə də asfalt yollar çəkilib. Amma şəhər yolları o qədər də yaxşı vəziyyətdə deyil. Ona görə də həm kənd yollarının çəkilişinin davam etdirilməsi, eyni zamanda, Şamaxı şəhərinin yol infrastrukturunun müasirləşməsi ilə əlaqədar əlavə tədbirlər görülməlidir. Dayanacaqlar da pis vəziyyətdədir. Ona görə bu yeni texnika bütün şəhər infrastrukturunun müasirləşməsinə xidmət göstərəcək. Əsas məsələ insanların sağlamlığı və təhlükəsizliyidir. Bu müasir təcili tibbi yardım maşınları hər yerdə lazımdır, özü də ən aparıcı şirkətlərin istehsalıdır. Əlbəttə ki, yeni avtobuslar həm rahatlıq gətirəcək, həm də təhlükəsizlik baxımından çox vacibdir.

**Anar Ələkbərov:** Cənab Prezident, Sizə təşəkkür edirik.

Heydər Əliyev Fondu tərəfindən Şamaxı şəhərində inşa edilən 2 nömrəli körpələr evi-uşaq bağçasının və rayonun Meysəri kəndində əsaslı təmir olunan körpələr evi-uşaq bağçasının mayın 25-də açılışları olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışlarda iştirak ediblər.

Dövlətimizin həyata keçirdiyi sosial-iqtisadi siyasətdə uşaqların təlim-tərbiyəsinin təşkili, onların sağlamlığının qorunması diqqət mərkəzində saxlanılır. Bu sahədə həyata keçirilən layihələrə Heydər Əliyev Fondu mühüm töhfələr verir. Fondun ölkəmizdəki məktəbəqədər tərbiyə müəssisələrinin yenidən qurulması, yeni, müasir uşaq müəssisələrinin inşası sahəsindəki fəaliyyəti müstəsna əhəmiyyətə malikdir. Uşaqların təlim-tərbiyəsinin Heydər Əliyev Fondunun fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil etdiyini "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramı bir daha təsdiqləyir. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Fondun təhsillə bağlı fəaliyyət dairəsində məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulmasına, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə nail olunmasına geniş yer ayrılıb və bu sahədə çox mühüm nəticələr əldə edilib. Şamaxı rayonunun ehtiyacları nəzərə alınaraq Heydər Əliyev Fondunun təşəbbüsü ilə bu rayonda inşa olunan 2 uşaq bağçası Fondun həyata keçirdiyi bu cür layihələrin ardıcıl xarakter aldığını bir daha aydın göstərir.

Məlikçobanlı, Birinci Çaylı, Quşçu, Avaxıl, Dədəgünəş və Meysəri kəndlərində, ümumilikdə, 1212 yerlik orta məktəb binaları, Şamaxı şəhəri, Şəhriyar qəsəbəsi, Quşçu kəndlərində, ümumilikdə, 290 yerlik körpələr evi-uşaq bağçaları, Həmyəli, Birinci Çaylı, Quşçu, Mərzəndiyə, Avaxıl, Məlhəm və Meysəri kəndlərində tibb məntəqələri inşa edilib, Qaleybuğurd və Saqiyan kəndlərində 320 yerlik orta məktəblər, 210 yerlik Şamaxı Texniki Humanitar və Təbiət Fənləri Təmayüllü Liseyi və rayon Mədəniyyət Mərkəzi əsaslı təmir olunub.

Açılışı olan tədris-tərbiyə ocaqlarından biri də Şamaxının Meysəri kəndindəki körpələr evi-uşaq bağçasıdır. 1926-cı ildən fəaliyyətə başlamış Meysəri kənd 120 şagird yerlik tam orta məktəbinin köhnə binası istismar üçün yararsız olduğuna görə 2018-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə kəndin giriş hissəsində 132 şagird yerlik yeni məktəb inşa edildikdən sonra Fond tərəfindən məktəbin köhnə binası körpələr evi-uşaq bağçasına uyğunlaşdırılmış layihə üzrə əsaslı təmir edilib. Körpələr evi-uşaq bağçasında 2019-cu ildə başlanılan təmir işləri 2020-ci ilin aprel ayında yekunlaşdırılıb.





Şamaxıdakı 2 nömrəli körpələr evi-uşaq bağçası ilə tanışlıq zamanı dövlətimizin başçısına və birinci xanıma məlumat verildi ki, 110 yerlik bu müəssisədə uşaqların təlim-tərbiyəsi ilə məşğul olmaq üçün hərtərəfli şərait yaradılıb. Bir sözlə, binada uşaqların gələcəyin sağlam vətəndaşı kimi yetişmələri üçün hərtərəfli şərait qurulub. Qruplar yaradılarkən müasir təlim-tərbiyə qaydaları rəhbər tutulub. Uşaqların istirahəti və əyləncəsi üçün geniş imkanlar açılıb. Təhsil ocağındakı bütün otaqlar lazımi avadanlıqla təchiz edilib. Burada balacaların ilk yaşlarından intellektual, fiziki və əqli inkişafı, onların istedad və qabiliyyətlərinin üzə çıxması, sağlamlıqlarının qorunması, insanlarla ünsiyyətin qurulması diqqət mərkəzində saxlanacaq.

Bütövlükdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə gənc məcburi köçkün ailələri üçün 16 mənzilli 1 yaşayış binası, rayonun

Qırx yerlik körpələr evi-uşaq bağçasında yataq və oyun otaqları, idman və musiqi zalları və digər zəruri otaqlar mövcuddur. Bağçanın həyətyanı ərazisində yenidənqurma və yaşıllaşdırma işləri aparılıb, uşaq əyləncə qurğuları, müasir işıqlandırma sistemləri quraşdırılıb. Kənd yerlərində belə bağçaların və digər sosial, mədəni, təhsil obyektlərinin istifadəyə verilməsi ölkəmizdə şəhərlə kənd arasında fərqin getdikcə aradan qaldırılması üçün atılan mühüm addımlardandır.

*Ardı Səh. 8*

# Bölgələrin inkişafı dövlətin diqqət mərkəzindədir

*Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxı rayonuna səfər ediblər*





**Əvvəli-Səh-7**

Əvvəli-Səh-7

Bu cür layihələr göstərir ki, Azərbaycanda həyata keçirilən sosial layihələrin miqyası və coğrafiyası getdikcə daha da genişlənir. Mayın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxı şəhərində istismar müddəti başa çatmış binalarda yaşayan vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün tikilən 51 mənzilli binada oldular.

AZƏRTAC xəbər verir ki, istismar müddəti başa çatmış binalarda yaşayan vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün Prezident İlham Əliyevin Sərəncamı ilə tikilmiş binada sakinlərin rahatlığı üçün hər cür şərait yaradılıb.

Qeyd edək ki, bu gün ölkədə həyata keçirilən sosial islahatların əsas təsiri özünü insanların yaşayış səviyyəsində göstərir. Dövlət daha çox aztəminatlı və xüsusi diqqət tələb edən təbəqənin sosial qayğılarının həllinə çalışır. Bu zaman dövlət məsələyə həm də kompleks yanaşır və bu yanaşma bütün əhali təbəqələrini əhatə edir. Bu sırada qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Artıq bu kateqoriyadan olan insanlar üçün ölkənin müxtəlif ərazilərində salınan yeni qəsəbələrdə və müasir yaşayış komplekslərində 300 mindən çox insan məskunlaşıb. Şəhid ailələrinin, müharibə veteranlarının mənzillərlə təmin olunması da dövlətin sosial siyasətinin prioritetləri sırasına daxildir. Dövlət həm də təbii fəlakətdən zərər görən vətəndaşların problemlərinin həllinə xüsusi qayğı ilə yanaşır. Baxmayaraq ki, təbii fəlakət hər bir ölkədə baş verir, amma başqa ölkələrdən fərqli olaraq Azərbaycanda təbii fəlakətin fəsadları vətəndaşın dövlətə etimadı, dövlətin isə vətəndaşın qayğısına qalmaq vəzifəsinin birliyi sayəsində həll olunur. Ötən ilin fevralında baş vermiş zəlzələ zamanı Şamaxıda xeyli sayda ev qəzalı vəziyyətə düşmüşdü. Dərhal hadisə yerinə gələn dövlətimizin başçısı təbii fəlakətin fəsadlarının aradan qaldırılması üçün təcili tədbirlər görülməsi ilə bağlı müvafiq tapşırıqlar verdi və sərəncamlar imzaladı. Bunun nəticəsi olaraq indiyədək çoxlu sayda yeni ev və çoxmərtəbəli bina tikilmiş və bərpa olunmuşdur.





Dövlətimizin başçısı və birinci xanım daha sonra zəlzələdən zərər çəkənlər üçün inşa olunmuş 110 mənzilli binalardakı mənzillərə baxdılar. Ötən il baş vermiş zəlzələdən sonra rayonda bütövlükdə 205 ev tikilib, 1219 ev bərpa və 1125 ev təmir olunub. Ümumilikdə 174 mənzilli, o cümlədən 4 mərtəbəli 44 mənzilli, 5 mərtəbəli 20 mənzilli və 5 mərtəbəli 110 mənzilli binaların tikintisi başa çatdırılıb. 1560 şagird yerlik şəhər 2 saylı tam orta məktəbi üçün yeni korpusun inşası və digər korpusun əsaslı təmiri davam etdirilir.

Görülən bütün bu işlərə Heydər Əliyev Fondu çox mühüm töhfələr verir. İndiyədək Fond tərəfindən 35 fərdi ev inşa edilib və 12 evdə bərpa işləri aparılıb, 290 yerlik 4 körpələr evi-uşaq bağçası, 360 şagird yerlik Məlikçobanlı kənd tam orta məktəbi üçün yeni binalar tikilib və 408 şagird yerlik Carhan kənd tam orta məktəbinin tikintisi davam etdirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 25-də Şamaxıda Pir Ömər Sultan ziyarətgahında olublar.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə burada zəruri konservasiya və bərpa işləri aparılmaqla ərazinin arxeoparka çevrilməsi planlaşdırılır.

Məlumat verildi ki, Pir Ömər Sultan ziyarətgahının xəlvəti sufi məktəbinin banisi Əbu Siracəddin Ömər Avaxılıyə aid olduğunu müəyyən etmək məqsədilə tədqiqatlar aparılır. Arxeoloqlar hesab edirlər ki, bu ərazi Azərbaycanda və dünyada xəlvətiliklə bağlı ilk xanəgahdır. 133 kvadratmetr sahədə aparılan ilkin arxeoloji tədqiqatlar zamanı XIV əsrin ortalarına aid türbə qalıqları və onun məhz xəlvətilik təliminin banisi Pir Ömər Avaxılıyə aid olduğunu təsdiqləyən artefaktlar aşkar olunub. Türbə qaya və çay daşlarından istifadə olunmaqla inşa edilib. Türbənin üstü tağvarı formada olan giriş qapısı cənub tərəfdəndir. Türbənin içərisində kənarları birqat bişmiş kərpiclə əhatələnən iki qəbir kamerası, şirəli və şirəsiz keramika nümunələri, müxtəlif tarixi dövrlərə aid pullar aşkar olunub. Ziyarətgahın ətrafında çoxlu sayda insan dəfn olunub. Onlardan türbənin şərq tərəfində tədqiq olunan iki qəbir üzərindəki kitabə Pir Ömər ziyarətgahının məhz xəlvətilik sufi təliminin banisi Pir Ömər Avaxılıyə aid olduğunu təsdiqləyən çox mühüm tarixi mənbə kimi dəyərləndirilə bilər.

Tədqiqatların davamlı və səmərəli aparılması, ziyarətgahın təbii və antropogen təsirlərdən qorunması məqsədilə abidənin üstü yüngül konstruksiyalardan istifadə olunmaqla örtülüb.



# Əli Əhmədov: "Sosial şəbəkələr bir çox hallarda insan hüquqlarının pozulması, şəxsiyyətin mənəvi terrora məruz qalması, ləyaqətinin alçaldılması vasitəsinə çevrilib"

***Baş nazirin müavini, YAP Sədrinin müavini - icra katibi Əli Əhmədov özünün rəsmi facebook səhifəsində yayımladığı "İnternet resurslarının hüquqi tənzimlənməsi problemi" sərlövhəli məqaləsinin aktuallığını nəzərə alaraq, onu oxucularımızın diqqətinə təqdim edirik:***



- Müasir informasiya texnologiyaları nəinki həyatımıza birdəfəlik daxil olub, habelə onu ciddi şəkildə dəyişdirə bilib. İnsanın ictimai statusu əhəmiyyətli dərəcədə yüksəlib, cəmiyyətin hər bir üzvünün ictimai proseslərdə və münasibətlərdə iştirak imkanları təsəvvür edilməyən dərəcədə genişlənib. Bunun məntiqi nəticəsi kimi insan və vətəndaş hüquqları anlayışının daha geniş, daha əhatəli mahiyyət və təzahür forması kəsb etməsi prosesi müşahidə olunmaqdadır.

Heç şübhəsiz, insanın ictimai və intellektual potensialını təsəvvür edilməyən miqyasda genişləndirən müasir informasiya texnologiyaları bəşəriyyətin böyük nailiyyəti, onun gələcək inkişafının hərəkətverici qüvvəsidir. Rəqəmsal texnologiya, süni intellekt getdikcə daha böyük sürətlə və qətiyyətlə əsas məhsuldar qüvvəyə çevrilir, bir yandan inkişaf qarşısında heç zaman görünməmiş perspektivlər açır, digər yandan isə, əgər belə demək mümkündürsə, insanı, hətta bütün cəmiyyəti öz buxovları arasına alır. Hüquq və əxlaq normalarına əsaslanan cəmiyyətlərdə ictimai münasibətlərin təkamülü informasiya texnologiyalarının inkişafının arxasınca çata bilmir. Nəticədə ictimai tənzimləmə mexanizminin müxtəlif səviyyələrdə və formalarda təkmilləşdirilməsi zərurəti getdikcə daha aydın şəkildə özünü göstərməyə başlayır. Deyilənlərin əhəmiyyətli bir hissəsi insan hüquqları sferasına aiddir. Müasir informasiya texnologiyaları insanın informasiya istehlakçısı kimi imkanlarını demək olar ki, hüdudsuzluğa qədər genişləndirməklə kifayətlənməyib, onun eyni zamanda informasiya istehsalçısı rolunda çıxış etməsini mümkün etmişdir. Sosial şəbəkələr informasiyanın yayılmasında olduğu kimi, yaradılmasında da hər bir fərdin iştirakı prinsipinə əsaslanır.

Özlüyündə mütərəqqi hadisə olan sosial şəbəkələr müvafiq hüququ tənzimləmə mexanizminin yaranmadığı şəraitdə terrorizmin, şiddət və nifrətin təbliğ edilməsi, narkotik vasitələrin internet üzərindən satılması, habelə şəxsiyyətin şərəf və layaqətinin alçaldılması kimi fəsadlarla müşaiyət olunur. Ənənəvi kütləvi informasiya vasitələrinin fəaliyyəti insan hüquqlarının qorunması baxımından qanunvericlik əsasında tənzimləndiyi halda, internet resurslar belə tənzimləmə mexanizmindən kənarda qalıb. Sirr deyil ki, sosial şəbəkələr və videoportallar bütün müsbət cəhətləri ilə yanaşı bir çox hallarda insan hüquqlarının pozulması, şəxsiyyətin mənəvi terrora məruz qalması, ləyaqətinin alçaldılması vasitəsinə çevrilib. Sosial şəbəkələrdən bu cür ziyanlı vasitələr, əslində isə mənəvi terror aləti kimi istifadə olunması onlara xas olan anonimliyə əsaslanır. Məhz anonimlik sosial şəbəkələrdən ayrı-ayrı qrupların və konkret fərdlərin şəxsiyyətin hüquqlarının ən kobud şəkildə pozulması, mənəvi terrora məruz qoyulması, təhqir edilməsi, bütün əxlaq və mənəviyyət dəyərlərinin ayaqlar altına atılması, yalan məlumatların yayılması, habelə yuxarıda sadalanan digər qanunazidd əməllərin həyata keçirilməsi məqsədilə istifadə edilməsinə imkan yaratmışdır. Heç kim sosial şəbəkələrdə ən eybəcər formada təhqir olunmaqdan, ləyaqətinin tapdalanmasından sığortalanmayıb. Lakin bundan da acınacaqlı hal insanın sosial şəbəkələrdə ona qarşı həyata keçirilən mənəvi terrorla mübarizə aparmaqda, öz hüquqlarını qorumaqda aciz olmasıdır. Eyni zamanda, dövlətin müvafiq qurumları da sosial şəbəkələrdə vətəndaşların hüquqlarının pozulmasına qarşı səmərəli mübarizə apara bilmir.

Etiraf etmək lazımdır ki, internet resurslardan anonim formada məkrli niyyətlərlə istifadə edilməsi cəmiyyətdə əxlaqi dəyələrin aşınmasına, ictimai münasibətlərdə gərilmələrin meydana gəlməsinə səbəb olur. Bu səbəbdən sosial şəbəkələrdən çirkin niyyətlərlə istifadə olunmasının qarşısının alınması, internet resurslarla əlaqədar fəaliyyətdə hüquqi tənzimlənmə mexanizminin yaradılması sosial sifarişə çevrilib. Bir çox ölkələr bu sahədə müəyyən hüquqi tənzimləmə mexanizmini yaradıblar və ya yaratmaqdadırlar. ABŞ hökumətinin bir neçə gün bundan əvvəl internet resursları istifadəçilərinin məsuliyyətinin artırılması, sosial şəbəkələrin yaratdığı imkanlardan sui-istifadə hallarının qarşısının alınması məqsədi güdən qərarı problemin nə dərəcədə aktual mahiyyət kəsb etdiyini sübuta yetirir. Düşünürəm ki, sosial şəbəkələrdə qeyri-sağlam təbliğatın aparılmasına imkan yaradan anonimliyin aradan qaldırılmasında, insanın mənəvi terrora məruz qoyulmasının, internet resurslardan qanunazidd məqsədlərlə istifadə olunmasının qarşısının alınmasında internet resursları istifadəçilərinin və onlayn platformaların məsuliyyətinin artırılması milli qanunvericiliyin müvafiq kontekstə təkmilləşdirilməsi predmeti kimi nəzərdən keçirilə bilər və keçirilməlidir. İnternet kampaniyalarının regional operatorlarının internet resurslardan və platformalardan terrorizmin, şiddət və nifrətin təbliği, şəxsiyyətə qarşı mənəvi terrorun həyata keçirilməsi məqsədilə istifadə edilməsinə görə cavabdehliyinin artırılması kimi hüquqi mexanizmin yaradılması da diqqətdən yayınmamalıdır. İnanıram ki, dövlətlər internet resurslardan terrorizmin təbliği naminə istifadə olunmasına qarşı olduqları kimi, onların mənəvi terror vasitəsinə çevrilməsinin, nifrət və şiddət aləti olmasının qarşısını almaq üçün də səylərini birləşdirməyin zəruriliyini dərk edəcəklər.

## "Uzun illər ABŞ-ın başqa ölkələrdə səpdiyi toxumlar indi özündə cücərir"



"Uzun illər ABŞ-ın digər ölkələrdə səpdiyi toxumlar indi özündə cücərir". SİA-nın xəbərinə görə, bunu Milli Məclisin deputatı Siyavuş Novruzov parlamentin dünən keçirilən plenar iclasında çıxış edərkən deyib.

Vaxtilə xaricdə oturub Azərbaycan əleyhinə iş aparanlarla bağlı cinayət işi açıldığını deyən deputat söyləyib ki, Azərbaycanda silahlı üsyana çağırış edənlər, terrozimə dəstək verənlər, dövlət və hökumət nümayəndələrinə qarşı sui-qəsd təşkil edilməsini tərifləyənlər, ona rəvac verənlər, o cür insanları qəhrəman hesab edənlər terrorizmin dini ekstremizmin birbaşa çağırışı ilə bağlı idi: "Bu, bütün beynəlxalq normalarında cinayət hesab olunur. Çox təəssüf ki, Azərbaycan bu məsələləri gündəmə gətirəndə, başladılar ki, Azərbaycanda söz, mətbuat azadlığı yoxdur, insanların hüquqları pozulur. 20 ildən çoxdur ki, ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyev hər zaman ərazi btüövlüyünün önəmi ilə bağlı məsələ qaldırıblar. Lakin İspaniyada hadisələr baş verənə qədər heç kim ərazi bütövlüyü məsələsinə reaksiya vermirdi. Ondan sonra yadda düşdü ki, ərazi bütövlüyü əsas şərtdir".

S.Novruzov qeyd edib ki, 3 il bundan qabaq internetdən anonim şəkildə istifadənin öz həllini tapması ilə bağlı məsələ gündəmə gətiriləndə, o zaman internetin sıxışdırılması ilə bağlı fikirlər irəli sürülməyə başlandı: "Freedoom House, SOROS və digərləri hanı? Trampa qarşı niyə söz deyə bilmirlər. ABŞ çörəyi yeyən Cəmil Həsənli, Arif Yunus, Sevinc Osmanqızı haradadır? Əgər Azərbaycanda internetlə bağlı hər hansı məsələ olsa idi, indi səsləri Avropa Şurasından gəlirdi".

## Müdafiə Nazirliyi: Silah gücü düşmənlə danışılacaq yeganə dildir

"Azərbaycan ordusu işğal olunmuş əraziləri azad etmək üçün güc tətbiq etmək hüququndan mütləq istifadə edəcək". SİA-nın məlumatına görə, bu barədə Azərbaycanın Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən bildirilib. Məlumatada qeyd edilib ki, görüləcək tədbirlər 2015, 2016 və 2018-ci illərdəki ilə müqayisədə daha sarsıdıcı və dağıdıcı olacaq. Düşmən böyük itkilər verəcək və bu da öz növbəsində onun tamamilə məğlubiyyətinə gətirib çıxaracaq. Düşmənlə danışmağın yeganə dili silah gücüdür və biz bundan istifadə edərək Ermənistanın işğalçı qüvvələrini ərazilərimizin hüdudlarını tərk etməyə məcbur edəcəyik. Azərbaycan əsgəri silahının gücü ilə buna mütləq nail olacaqdır!



# Rasim Quliyev: "Azərbaycan münaqişənin həllində uyğun zamanı və məqamı gözləyir"

"Dağlıq Qarabağ münaqişəsinin yaranması geosiyasi vəziyyətin ortaya çıxardığı nəticə idi. Həmin dövrdə dünyada gedən geosiyasi vəziyyət bir sıra problemlər meydana çıxardı ki, bura SSRİ-nin dağılması, müstəqil ölkələrin yaranması nəticəsində Avropada bufer zonaların əldən çıxması, milli münaqişələrin yaranması daxildir. Artıq tarixi faktlar da sübut edir ki, Dağlıq Qarabağ münaqişəsi də məhz bu proseslərin nəticəsi idi". Bu fikirləri SİA-ya açıqlamasında "Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri, siyasi ekspert Rasim Quliyev deyib.

O bildirib ki, əslində proseslər əsrin əvvəllərində yenicə müstəqillik qazanan Azərbaycanın məcbur atmalı olduğu addımlar kimi davam etməli idi: "Lakin həmin dövrdən fərqli olaraq Ulu Öndər Heydər Əliyev Azərbaycana gələrək xalqı birləşdirdi, ölkəmizin müstəqilliyini təmin etdi. Bu, çox vacib idi. Çünki Dağlıq Qarabağ probleminin həlli üçün ilk növbədə müstəqil siyasətimizi müəyyən etməli, ikincisi isə ordu quruculuğunu başa çatdırmalı idik".



Ulu Öndər ideyalarının hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyən ekspert söyləyib ki, ölkə başçısının rəhbərliyi ilə həyata keçirilən müstəqil xarici siyasət nəticəsində Azərbaycan dünya çapında böyük nüfuz sahibinə çevrilib. R.Quliyev qeyd edib ki, Dağlıq Qarabağ münaqişəsi Qafqaz regionunda geosiyasi maraqların toqquşduğu həll olunmaz problem kimi qalmaqdadır: "Beynəlxalq hüquq normaları Azərbaycanın tarixi torpaqlarını azad etməsinin xeyrinədir. Dünyanın ən nüfuzlu təşkilatlarının sənədlərində, eləcə də dünya ölkələri tərəfindən də Dağlıq Qarabağın Azərbaycana məxsusluğu tanınıb. Lakin Prezident İlham Əliyevin son çıxışında da qeyd etdiyi kimi Dağlıq Qarabağ münaqişənin həlli üçün vaxt və geosiyasi vəziyyət düzgün qiymətləndirilməlidir. Həqiqətən də problemin həlli ilə bağlı vaxt açıqlamaq çox çətindir. Çünki hər şey geosiyasi proseslərdə asılıdır. İstər böyük, istər qonşu dövlətlər, hətta ermənilər də çox yaxşı bilir ki, Azərbaycan uyğun zamanı və məqamı gözləyir. Biz atdığımız atəşin boşa və ya hədəfdən öncə digər manevə dəyməsini istəmirik. Ölkə başçısının dövlətçilik, siyasi təcrübəsi, dünya çapında gedən siyasi oyunları bilməsi Azərbaycanın zamanı düzgün qiymətləndirməsi üçün kifayət edir".

Ümumilikdə münaqişənin həlli istiqamətində gedən bütün proseslərin Azərbaycanın xeyrinə olduğunu xüsusi vurğulayan ekspert əlavə edib ki, buna səbəb ölkəmizin iqtisadi gücü, müstəqil siyasəti, beynəlxalq əməkdaşlığıdır: "Pandemiya ilə bağlı baş verən proseslər bir daha sübut etdi ki, Azərbaycan dünyada böyük nüfuza malik bir ölkədir. Ölkəmiz budəfəki ekstrimal vəziyyətdə də aktiv beynəlxalq iştirakçı olduğunu bütün dünyaya göstərmiş oldu. Hesab edirəm ki, Azərbaycan post pandemiya dövrünün yeni iqtisadi, siyasi, beynəlxalq münasibətlər sistemində daha uğurlu imkanlar əldə edəcək. Müəyyən dövlətlərin post pandemiya dövrünə zəif çıxacağı proqnozlaşdırılır. Bu baxımdan düşünürəm ki, yeni geosiyasi vəziyyətin yaranmasına bunu da daxil etmək olar".

# Milli Məclisin yaz sessiyası başa çatıb

***Dünən Milli Məclisin növbəti plenar iclası keçirilib. İclası açan Milli Məclisin Sədri Sahibə Qafarova gündəlik barədə məlumat verib. Bildirib ki, gündəliyə 12 məsələ daxil edilib.Gündəliyin təsdiqindən sonra deputatlar cari məsələləri müzakirə ediblər. Çıxış edən deputatlar ölkə gündəmində olan vacib məsələlərdən söz açıblar, qeyd və təkliflərini veriblər. Sonra gündəliyin birinci məsələsinin müzakirəsinə başlanılıb.***




İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişinin təsdiq edilməsi haqqında" qanun layihəsi barədə məlumatında bildirib ki, bu sənəd Azərbaycan-Türkiyə əlaqələrinin yeni mərhələyə yüksəlməsi üçün çox vacibdir və ölkəmizin iqtisadi maraqlarına uyğundur. Komitə sədri qeyd edib ki, ötən ilin məlumatlarına görə, Türkiyə Azərbaycanın xarici ticarət tərəfdaşları arasında ikinci yerdə durur. Keçən dövr ərzində qardaş ölkə ilə Azərbaycan arasında xarici ticarət dövriyyəsi 33 faiz artıb. 2019-cu ildə Azərbaycanın bu ölkəyə ixracı 36 faiz artıb. Azərbaycan Türkiyə ilə xarici ticarət dövriyyəsində hər zaman müsbət saldoya malik olub. 2019-cu ildə bu saldo rekord şəkildə artaraq 1,2 milyard dollara çatıb. Qeyd olunub ki, Preferensial Sazişin imzalanması Azərbaycanın qeyri-neft sektorunda ixracının artmasında da mühüm rol oynayacaq. Sazişdə 15 mal qrupu üzrə hər iki ölkə arasında həm kvota, həm də rüsumun sıfıra endirilməsi ilə bağlı mühüm müddəaların öz əksini tapdığı da vurğulanıb. Sənəd səsə qoyularaq qəbul edilib.

Sonra Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında qarşılıqlı olaraq vizadan azad etmə haqqında" Sazişin vacib və əhəmiyyətli məsələləri əhatə etdiyini vurğulayıb. Qeyd olunub ki, bu sənəd ölkələrimiz arasında dostluq və əməkdaşlığı möhkəmləndirməklə yanaşı, Azərbaycan və Türkiyə vətəndaşlarının səfərlərini də asanlaşdıracaq. Saziş hər iki tərəfin etibarlı pasport sahiblərinə şamil ediləcək. Yeni tərəflərin vətəndaşlarına məxsus pasportların ölkəyə giriş tarixindən etibarən ən azı 6 ay etibarlılıq müddəti olmalıdır və qonşu ölkədə vizasız maksimum qalma müddəti 90 gün nəzərdə tutulur. Ətraflı müzakirələrdən sonra sənəd səsə qoyularaq təsdiqlənib.

Sonra Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi maliyyə əməkdaşlığı haqqında" sənədi şərh edib. Komitə sədri bildirib ki, qanun layihəsi Azərbaycan və Türkiyə arasında uzun illər mövcud olan dostluq əlaqələri çərçivəsində hərbi əməkdaşlığı daha da möhkəmləndirməyə, iki ölkə arasında təhlükəsizlik üzrə əməkdaşlığın daha da gücləndirilməsinə xidmət edəcək, ordumuzun inkişafına töhfə verəcək. Sənədlə əlaqədar Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov da fikirlərini bildirib. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Sonra Ziyafət Əsgərov "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında təhlükəsizlik üzrə əməkdaşlıq haqqında Saziş"ə Əlavə Protokolun təsdiq edilməsi barədə sənədi təqdim edərək bildirib ki, Protokol iki ölkə arasında qarşılıqlı əməkdaşlığın əhatə dairəsini bir qədər də genişləndirməkdən ibarətdir. Bu sıraya insan alveri, casusluq və təxribat, məcburi əmək və qanunsuz miqrasiya, dini radikalizm zəminində törədilən cinayətlər, qiymətli kağızların saxtalaşdırılması, orqanların, toxumaların və hüceyrələrin qanunsuz dövriyyəsi, mülkiyyət əleyhinə, vətəndaşların sağlamlığı, şərəf və ləyaqəti əleyhinə edilən cinayətlərlə mübarizə məsələləri daxil edilib. Sənəd səsə qoyularaq təsdiqlənib.

Fasilədən sonra müzakirələr davam etdirilib. Səməd Seyidov "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Azərbaycanın Türkmənistandakı Səfirliyinin və Türkmənistanın Azərbaycandakı Səfirliyinin yerləşməsi üçün qarşılıqlı olaraq torpaq sahələrinin ayrılması haqqında" Sazişin təsdiq edilməsi barədə danışaraq deyib ki, ölkələrimiz arasındakı ənənəvi dostluq münasibətlərini daha da inkişaf etdirmək, qarşılıqlı olaraq diplomatik nümayəndəliklərin fəaliyyəti üçün əlverişli şərait yaratmaq məramına xidmət edir. Sənəd səsvermə yolu ilə təsdiqlənib. Milli Məclisin Sədri Sahibə Qafarova sənədlə əlaqədar çıxış edərək bildirib ki, 82 deputatın müraciəti ilə qanunvericiliyə uyğun olaraq parlamentin növbədənkənar sessiyasının keçirilməsi ilə bağlı sərəncam imzalayıb. İyunun 1-də və 2-də keçirilən iclaslarda dəyişikliklərin ikinci və üçüncü oxunuşlarda müzakirəsi də aparılacaq.

Sonra Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Ünvanlı dövlət sosial yardımı haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında (ikinci oxunuş) məlumat verib. Bildirilib ki, Qanunun 5 maddəsinə 11 dəyişiklik edilib və 10-cu maddə yeni redaksiyada verilib. Dəyişikliklərin hamısı humanist məqsədlərə xidmət edən, yoxsul insanların dövlət yardımına əlçatanlığını daha da genişləndirən müddəalardır. Sənəd ölkə Prezidentinin ünvanlı sosial yardımın çevrəsini daha da genişləndirmək, əlçatanlığı asanlaşdırmaq, şərtləri yumşaltmaq barədə tövsiyələri əsasında hazırlanıb. Sosial yardım almaq üçün müraciət edilən zaman ailə sosial yardımın təyin olunmasına və ya məbləğinin dəyişdirilməsinə səbəb ola biləcək hallar barədə tam və düzgün məlumat verməlidir. Sosial yardımın dayandırılmasına və ya məbləğinin dəyişdirilməsinə səbəb ola biləcək hallar aşkarlandıqda, sosial yardımın ödənişi dayandırılır və ailənin sosial yardım almaq hüququna yenidən baxılır. Maddədə digər vacib məqamlar da öz əksini tapıb. Təklif olunan dəyişikliklər növbəti illərdə ünvanlı dövlət sosial yardımın və özünüməşğulluq proqramlarının genişləndirilməsini, həmçinin aktiv özünüməşğulluğa yönləndirilməsini təmin edəcək. Sənəd səsə qoyularaq qəbul edilib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova çıxış edərək deyib ki, bu gün yaz sessiyasının sonuncu iclasıdır, növbədənkənar sessiyanın keçirilməsi də nəzərdə tutulur.

Sədr yaz sessiyasının yekunları barədə deputatlara məlumat verərək söyləyib ki, 6-cı çağırış Milli Məclisin yaz sessiyasında 12 iclas keçirilib, 123 qanun və qərar, o cümlədən 2 Konstitusiya Qanunu qəbul edilib. Parlamentdə Prezident İlham Əliyevin martın 10-da Milli Məclisin ilk iclasında proqram xarakterli nitqində verdiyi tövsiyələrin yerinə yetirilməsi üçün ardıcıl tədbirlər görülüb. Dövlətimizin başçısının başladığı əsaslı və hərtərəfli islahatların tərkib hissəsi kimi parlamentin və onun komitələrinin rəhbərliyində müxalif partiyaların təmsilçilərinin yer alması ölkənin siyasi sistemində təşəkkül tapan yeni konfiqurasiyanın mühüm tərkib hissələrindən birini təşkil edir.

Qeyd edilib ki, yaz sessiyasının ilk günündən Milli Məclisin Aparatında və İşlər İdarəsində struktur və kadr islahatlarına başlanılıb, Aparatın və İşlər İdarəsinin yeni strukturu, ştat cədvəli müəyyən edilib, bir sıra dövlət qulluqçuları ixtisar edilib. Milli Məclis Aparatında 13 şöbə əvəzinə 9 şöbə, İşlər İdarəsində isə 9 şöbə əvəzinə 4 şöbə saxlanılıb. Yeni bir şöbə - İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsi yaradılıb ki, bu şöbənin fəaliyyətinin əsas istiqaməti qanunvericilik hakimiyyəti ilə icra hakimiyyətləri arasında birgə fəaliyyəti və sıx əməkdaşlığı təşkil etməkdir. Sədr çıxışında belə bir inamı ifadə edib ki, islahatlar parlamentin işinin daha səmərəli surətdə təşkil və təmin edilməsinə kömək göstərəcək.

Bildirilib ki, Milli Məclisin iclaslarında Nazirlər Kabinetinin, Hesablama Palatasının, İnsan hüquqları üzrə müvəkkilin, Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın və İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun hesabat və məruzələri dinlənilib. Parlamentin fəaliyyətində yeni tendensiyalardan biri qanun layihələri ilə bağlı ictimai dinləmələrin keçirilməsinə geniş yer verilməsi olub. Təcrübə göstərir ki, bu cür dinləmələr qanun layihələri üzərində iş prosesində qarşıya çıxan məsələlərin səriştəli şəkildə həll edilməsinə və nəticə etibarilə layihələrin keyfiyyətinin yüksəlməsinə kömək göstərir.

Sədr daha sonra deyib ki, dövlətimizin başçısının birbaşa rəhbərliyi və nəzarəti altında ölkəmizdə koronavirus pandemiyasına qarşı həyata keçirilən tədbirlərdə Milli Məclis yaxından iştirak edir. Parlamentdə xüsusi iş qaydası tətbiq edilib. Milli Məclisin iclaslarında deputatlar 2 metr ara məsafəsi saxlanılmaqla və hər sırada 1 nəfər olmaqla tibbi maska ilə əyləşirlər. Komitə və komissiyaların iclasları onlayn rejimdə keçirilir. Lazımi texniki imkanlar yarandıqdan sonra Milli Məclisin plenar iclaslarının da internet üzərindən keçirilməsi mümkün olacaq. Prezident İlham Əliyevin Sərəncamı ilə yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fonduna Milli Məclisin deputatları və əməkdaşları 250 min manatdan çox vəsait köçürmüşlər. Milli Məclisin iclasında deputatlar koronavirus pandemiyasına qarşı mübarizədə peşə və vətəndaşlıq borclarını şərəf və vicdanla yerinə yetirən Azərbaycan həkimlərini və tibb işçilərini, polis və gömrük xidməti əməkdaşlarını, sərhəd qoşunlarının əsgər və zabitlərini alqışlayaraq, saygı duruşunda dayanmışlar. Bu tədbirə həsr edilən sosial videoçarx bir neçə gün ərzində müxtəlif televiziya kanallarında nümayiş etdirilərək, pandemiyaya qarşı mübarizədə fədakarlıq göstərən peşə sahiblərinə cəmiyyətin hörmətinin artırılması baxımından böyük tərbiyəvi əhəmiyyət daşımışdır. Mühüm tədbirlərdən biri də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə başlanmış qanvermə aksiyasında Milli Məclisin deputatlarının və əməkdaşlarının fəal iştirakı olmuşdur. Artıq müntəzəm xarakter alan bu humanist aksiya cəmiyyətdə böyük rəğbətlə qarşılanır. Həmişə olduğu kimi, Azərbaycan tarixinin həm əlamətdar, həm də kədərli günlərinə Milli Məclis öz münasibətini bildirmişdir. Ulu öndər Heydər Əliyevin anadan olmasının 97 illiyi ərəfəsində keçirilən iclasda bu dahi şəxsiyyətin xalqımız və dövlətimiz qarşısında göstərdiyi misilsiz xidmətlər minnətdarlıq hissi ilə anılıb.

Bildirilib ki, Milli Məclisin iclasında faşizm üzərində qələbənin 75 illiyindən söhbət açılıb, xalqımızın oğul və qızlarının döyüş meydanlarında qəhrəmanlığına, arxa cəbhədə fədakarlığına hörmət və saygı ifadə edilib.

"Mayın 7-də Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının Sədri Valentina Matviyenkonun təşəbbüsü ilə Böyük Vətən müharibəsində qələbənin 75-ci ildönümünə həsr edilən videokonfrans keçirilib, burada müxtəlif ölkələrdən 17 iştirakçı, o cümlədən 7 ölkənin parlament sədrləri çıxış ediblər. Sədr deyib ki, videokonfransda mən öz çıxışımda ölkəmizin qələbəyə verdiyi böyük töhfələrdən danışdım, bu gün Ermənistanda tarixin saxtalaşdırılmasına, müharibə canilərinin qəhrəmanlaşdırılmasına qarşı kəskin etirazımı bildirdim"- deyə Sahibə Qafarova vurğulayıb.

Sədr vurğulayıb ki, Milli Məclisin iclasında tariximizin faciəli səhifələri olan 31 mart - Azərbaycanlıların Soyqırımı Günü, eləcə də Şuşanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsinin ildönümü qeyd olunub, erməni şovinistlərinin vəhşilik əməllərinin qurbanı olmuş günahsız insanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. İclasımızda biz yeni bir formadan istifadə etdik. Ata-baba yurdunun həsrəti ilə yaşayan şuşalı gənc qız parlamentin iclasında xalqımıza və dünyaya müraciət etdi.

Sahibə Qafarova deyib: "Mən möhtərəm Prezidentimizin Milli Məclisin birinci iclasında söylədiyi nitqdən sitat gətirmək istəyirəm. Prezident İlham Əliyev demişdi: "Əlbəttə ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olan bütün təşkilatlarda biz fəal olmalıyıq, hücum diplomatiyası aparmalıyıq, çünki haqq-ədalət bizim tərəfimizdədir. ...Bizi təmsil edən deputatlar fəal olmalıdırlar. Hesabat verməlidirlər ki, nə iş görmüsən, kiminlə görüşmüsən, hansı məsələni qaldırmısan. Biz beynəlxalq fəaliyyətimizin səmərəliliyini artırmalıyıq".

Məhz bu mülahizələrə əsaslanaraq, Milli Məclis xalqımızın sıravi bir nümayəndəsini, didərginliyin ağrı-acısını hər gün yaşayan insanların təmsilçisini yüksək kürsüyə dəvət etdi və onun səsi ilə dünyaya xitab etdi. Bu çıxış ölkə və dünya mediasında geniş əks-səda doğurdu. Dünya erməni şovinizminin hansı faciələr törətdiyinin bir daha şahidi oldu".

Çıxışının sonunda Parlamentin Sədri Milli Məclisin 2020-ci il yaz sessiyasını bağlı elan edib. Sonda Azərbaycanın dövlət himni səsləndirilib. Yaz sessiyası öz işini başa çatdırıb.

# İlham Əliyevin mükəmməl xilas modeli

***Bütün dünya artıq bir neçə aydan çoxdur ki, koronavirus imtahanı verir. Topsuz-tüfəngsiz atəş açan bu müharibədə Yer kürəsinin bütün qitələri "gözəgörünməz düşmən"lə vuruşmağa məhkumdur. Koronavirus - silahsız-sursatsız baş verən üçüncü dünya müharibəsidir. Koronavirus - XXI əsrin biomüharibəsidir. Bu müharibənin strategiyası da, taktikası da dünyada baş vermiş müharibələrin hamısından fərqlidir. Əgər indiyə qədərki müharibələrdə hücum taktikası əsas hesab olunurdusa, biomüharibədə müdafiə olunma, təcrid edilmə qələbəyə aparan əsas yolu müəyyən edir. Başqa xalqların ərazilərini, sərvətlərini ələ keçirməyi əsas hədəf kimi seçən digər müharibələrdən fərqli olaraq, biomüharibənin əsas strategiyasını insanı məhv etmək təşkil edir. Koronavirus insanı hədəfə aldığı üçün bütün insanlıq bu bəşəri bəla ilə mübarizədə birləşmişdir.***

Koronavirus - sosial, ictimai-siyasi, irqi, dini fərqləri nəzərə almadan insanlığa qarşı ünvanlanmış total müharibədir. Ona görə də koronavirusa qarşı mübarizədə bütün insanlıq vahid amal ətrafında birləşmişdir. Məhz buna görədir ki, koronavirus - Ümumdünya Səhiyyə Təşkilatını biomüharibənin baş qərargahına çevirmişdir. Bu "müharibədə" ölkələrin qələbəyə nail ola bilməsi dövlət rəhbərlərinin təkcə silahlı qüvvələrə deyil, bütün xalqa vaxtında əmrlər verməyi bacaran Ali Baş Komandan missiyasını icra etməklə bərabər, həm də müəyyən edilmiş proqramın mütləq həyata keçirilməsini təmin etməsindən çox asılıdır.

## Prezidenti İlham Əliyev Yer kürəsini bürümüş koronavirus biomüharibəsində fövqəladə bacarıq nümayiş etdirmiş, ölkəsini və xalqını xilas etmək vəzifəsini həyata keçirmiş qalib Baş Komandandır

Bu gün bütün xalqımız adından böyük qürur hissi ilə bəyan etmək olar ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yer kürəsini bürümüş koronavirus biomüharibəsində fövqəladə bacarıq nümayiş etdirmiş, ölkəsini və xalqını xilas etmək vəzifəsini həyata keçirmiş qalib Baş Komandandır. Əvvəla, Azərbaycan Respublikasının Prezidenti dünya ölkələrinin demək olar ki, mütləq əksəriyyətindən qabaq biomüharibə küləyinin əsməkdə olduğunu, bu müharibənin mahiyyətini və miqyasını dərhal müəyyən etmişdir. Buna görə də Azərbaycan Respublikası biomüharibənin qarşısını almaq üçün düşünülmüş qabaqlayıcı tədbirlərin həyata keçirilməsi baxımından dünya ölkələrini qabaqlamışdır.

Prezident İlham Əliyevin qəti tapşırıqları əsasında qısa müddətdə ali və orta təhsil müəssisələrində tədris prosesinin dayandırılması, ölkə miqyasında genişmiqyaslı dezinfeksiya tədbirlərinin təşkili, tərəddüd etmədən ölkəmizin sərhədlərinin bağlanması-na dair qonşu dövlətlərlə danışıqların aparılması və qəti qərarların qəbul edilməsi koronavirus biomüharibəsində gələcək qələbənin əldə olunmasının əsas təminatına çevrilmişdir. Paralel olaraq dövlət başçımızın rəhbərliyi ilə pandemiya dövrünün çağırışlarına uyğun olaraq yeni işlək strukturların yaradılması və bir sıra dövlət qurumlarının fəaliyyətinin yenidən qurulması, onların əlaqəli və operativ işlərinin təşkili koronavirusla mübarizənin bütün cəbhə xətti boyu aparılmasına meydan açmışdır.

Dövlət mexanizmi çevik və operativ, fasiləsiz və ahəngdar işləmək baxımından Azərbaycan Respublikasının Prezidenti qarşısında məsuliyyətlə imtahan vermişdir. Cənab Prezidentin tapşırığı əsasında Nazirlər Kabineti yanında yaradılmış Operativ Qərargah biomüharibə şəraitində sözün həqiqi mənasında operativ şəkildə çalışaraq, zəruri qərarları və tələbləri müəyyən etmiş, vaxtında Azərbaycan xalqına çatdırmışdır. Operativ Qərargah vasitəsilə hazırlanıb xalqa ünvanlanmış icazə sistemləri və qadağa qaydaları pandemiya şəraitində insanların həyat fəaliyyətinin idarə olunması və tənzimlənməsində mühüm rol oynamışdır.

Fikrimizcə, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi bu quruma həvalə olunmuş məsuliyyətli vəzifələri yüksək peşəkarlıq səviyyəsində yerinə yetirmək baxımından Azərbaycan Respublikası Prezidentinin etimadını doğrultmuşdur. Azərbaycan polisi həm üzərinə düşən əhalinin və nəqliyyatın nəzarət-buraxılış işlərini bacarıqla təşkil etməklə və həm də işin məsuliyyət dərəcəsinin xalqa çatdırılması üçün nümunəvi maarifçilik təlimi aparmaqla proseslərin tənzimlənməsinə qüvvə və bacarığını əsirgəməmişdir. Ölkəmizin iqtisadiyyat, sosial müdafiə, rabitə, nəqliyyat nazirlikləri və idarələri öz səlahiyyətlərini Prezidentin tapşırıqlarına uyğun olaraq, işlərini respublika üzrə hər yerdə yeni şəraitlə əlaqəli şəkildə qurmaqla həm koronavirusla mübarizəyə öz köməklərini göstərir, həm də ən çətin şəraitdə ölkədə həyat ritmlərinin davam etdirilməsinə töhfələrini verirlər. Təhsil Nazirliyi ilk dəfə olaraq bütün ölkəni əhatə edən distant təhsil şəbəkəsi yaratmağa nail olaraq fasiləsiz təhsili təmin etmişdir.

## "Biz birlikdə güclüyük!" çağırışı real həyatda, ən çətin proseslərdə taleyüklü məsələlərin həllində özünün real gücünü və əhəmiyyətini isbat etmişdir

Beləliklə də, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük uzaqgörənliklə söylədiyi "Biz birlikdə güclüyük!" çağırışı real həyatda, ən çətin proseslərdə taleyüklü məsələlərin həllində özünün real gücünü və əhəmiyyətini isbat etmişdir. Bütün bunlarla bərabər, XXI əsrin xərçəngi olan koronavirus biomüharibəsində ən böyük imtahanı ölkəmizin səhiyyə sistemi verməkdə davam edir. Azərbaycan Respublikasının Prezidentinin son onillik ərzində səhiyyə sahəsində həyata keçirdiyi ardıcıl islahatlar, paytaxtda və regionlarda istifadəyə verilmiş müasir tipli xəstəxana kompleksləri, xəstəxanaların ən müasir tibbi avadanlıq və cihazlarla təmin olunması, həkimlərin bilik və bacarıqlarının daha da təkmilləşdirilməsi sahəsində atılmış addımlar respublikamızda rəqabətədavamlı səhiyyə səviyyəsinin formalaşdırılması ilə nəticələnmişdir.



**İsa HƏBİBBƏYLİ,**
**AMEA-nın birinci vitse-prezidenti,**
**Milli Məclisin deputatı, akademik**

Normal müharibələr zamanı, əksər hallarda arxa cəbhədə yerləşdirilən hospitallardan, səhra xəstəxanalarından fərqli olaraq, koronavirus biomüharibəsində ön cəbhədə təmsil olunan mülki xəstəxanalarımız pandemiyanın qarşısının alınması üçün "hərbi" vəziyyətdə də işləməyin mümkünlüyünü isbat etmişlər. İkincisi isə, Hippokrat andına sədaqətlə xidmət edən Azərbaycan həkimlərinin vətənpərvərliyi və fədakarlığı sözün əsl mənasında xalqımızın koronavirus müharibəsinin sınaqlarından uğurla çıxmasında mühüm rol oynamışdır. Azərbaycan həkimləri pandemiya dövrünün insanlar üçün həyati əhəmiyyət daşıyan vəzifələrini şərəflə həyata keçirərək dövlətimizin də, xalqımızın da etimadını qazana bilmişdir. Bu mənada yeni dövrün həkimlərinin, tibb bacılarının bədii obrazının yaradılması postpandemiya dövrünün ədəbiyyatının baş mövzusu olmalıdır.

## Zirvə görüşü Azərbaycan Respublikası Prezidentinin türk dünyasına və beynəlxalq birliyə birbaşa töhfəsidir

Dünyada və ölkəmizdə pandemiya dövrünün birinci mərhələsinin yekunlarını təhlil edərək, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Türk dövlətləri başçılarının onlayn fövqəladə Zirvə toplantısının keçirilməsini də əlamətdar tarixi hadisə kimi ayrıca qeyd etməyi vacib hesab edirəm. Türk dövlətləri başçılarının onlayn fövqəladə Zirvə toplantısı pandemiya dövründə

bir-birilərindən təcrid olunmuş dünya ölkələri arasında əlaqə yaratmaq nöqteyi-nəzərindən Azərbaycan Respublikasının beynəlxalq birliyə doğru ilk qətiyyətli addımı kimi mühüm əhəmiyyətə malik olan tarixi hadisədir. Koronavirusla mübarizənin başlandığı vaxtdan indiyədək dünyanın müxtəlif qütblərində yerləşən ayrı-ayrı beynəlxalq təşkilatlardan heç birinin bu qədər çoxlu dövləti əhatə edən geniştərkibli onlayn iclas keçirmədiyini nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ideya rəhbərliyi və təşkilatçılığı ilə keçirilmiş Türk dövlətləri başçılarının onlayn fövqəladə Zirvə toplantısını pandemiya dövrünün alternativi olmayan nadir hadisəsi kimi qiymətləndirmək lazım gəlir. Bu, pandemiyanın ölkələr arasında yaratdığı blokadanı yarmaq, bir-birilərini məlumatlandırmaq, təcrübə mübadiləsi aparmaq, çıxış yolları tapmaq və əməkdaşlıq etmək istiqamətində Azərbaycan Respublikasının həyata keçirdiyi mühüm beynəlxalq əhəmiyyətə malik olan həmrəylik aktıdır.

Bu, Azərbaycan Respublikası Prezidentinin türk dünyasına və beynəlxalq birliyə birbaşa töhfəsidir. Nəhayət, bu, dünya miqyası almış pandemiya dövrünün problemlərini tezliklə və birlikdə həll etməyə Azərbaycan dövlətinin dəstəyinin ifadəsidir. Ən nəhayət, bu, ölkəmizdə və dünyada dialoq carçısı kimi tanınan Azərbaycan Respublikası Prezidentinin illərdən bəri apardığı dialoq siyasətinin növbəti təzahürü və konkret əməli nəticəsidir. Şübhəsiz, pandemiya dövrü bitəcək və illər keçsə də, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin keçirdiyi Türk dövlətləri başçılarının onlayn fövqəladə Zirvə toplantısı Azərbaycanın tarixinin şərəfli hadisəsi olaraq ölkə salnaməsinin pozulmaz səhifəsi kimi yaşayacaqdır.

Hesab edirəm ki, Azərbaycanda pandemiya dövrünün çağırışlarının işığında qısa müddətdə tibbi maska fabrikinin yaradılması və istehsala başlaması, məhsullarını xalqa çatdırması da koronavirusla mübarizə dövrünün yaddaqalan hadisəsidir. Dünyanın birdən-birə maska qıtlığı çəkdiyi şəraitdə maska istehsalının təşkili respublikamızda çevik iqtisadi mühitin formalaşdırıldığının əyani göstəricisidir. Ən əsası isə bu, koronavirusla mübarizədə Azərbaycan dövlətinin öz vətəndaşlarının sağlamlığına göstərdiyi həssas münasibətin və real qayğının əməli ifadəsidir. Hesab edirəm ki, tibb sahəsində, hərbi işdə, mülki müdafiə sistemində, akademik laboratoriya mühitində daim ehtiyac hiss olunan maska istehsalı pandemiya dövründən sonra da davam etdiriləcək, yerli tələbatın ödənilməsinə xidmət göstərəcəkdir. Beləliklə, pandemiya mərhələsində Azərbaycanda yeni bir istehsal müəssisəsinin də əsası qoyulmuşdur.

Son günlərin hadisələri və qərarları aydın surətdə göstərir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizi postpandemiya dövrünə hazırlamaq istiqamətində də vaxtında və məqsədyönlü iş aparmaqdadır. Bu cəhətdən birinci mərhələdə ölkədə iş yerlərinin saxlanılması və işçilərin ixtisar edilməsinə dair sərt tədbirlərin həyata keçirilməsi həmin sahədə görülmüş düşünülmüş məqsədyönlü tədbirlərdən biri kimi qiymətləndirilə bilər. İkincisi, Azərbaycan dövlətinin aprel-may ayları müddətində 600 min nəfərdən çox aztəminatlı insanlara, iş yerlərini itirməli olmuş çalışanlara verdiyi maddi maliyyə dəstəyi və müəssisələrdə tətbiq olunan vergi güzəştləri bugünün real ehtiyaclarını ödəməklə bərabər, həm də sabahın istehsalat proseslərinin icraçılarını, peşəkar mütəxəssislər təbəqəsini qoruyub saxlamaq deməkdir. Heç şübhəsiz, postpandemiya dövrünün reallıqları və çağırışları qarşıdakı illərin yeni tipli iqtisadi münasibətlərini də diktə edəcəkdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin karantin rejiminin mərhələli şəkildə yumşaldılması haqqındakı qərarı əhalinin qarşıdakı yeni iqtisadi və mənəvi mühitə adaptasiya olunması baxımından əhəmiyyətli olduğu qədər ən müasir çağırışlara istiqamətləndirilməsi cəhətdən də faydalıdır.

Bu cəhətdən yanaşsaq, pandemiya dövrünün bir sıra çağırışları, sifarişləri indidən görünməkdədir. Alimlər bu fikirdədirlər ki, qarşıdakı yeni dövrdə dünyada ölkələrin daxili tələbatının ödənilməsinə xidmət edəcək iqtisadi sahələrin inkişaf etdirilməsi üstünlük qazanacaqdır. Bu cəhətdən hər bir dövlət üçün ərzaq və enerji təhlükəsizliyinin təmin edilməsinin ön mövqeyə çıxacağı tam gözlənilәndir. Əhalinin çoxişlənən mallara gündəlik tələbatlarının daxili istehsal əsasında ödənilməsinə də yəqin ki, daha çox fikir veriləcəkdir. Eyni zamanda informasiya texnologiyası sahəsində xidmətlərin daha da təkmilləşdirilməsi yeni dövrün əsas çağırışlarından sayıla bilər. Zəruri səhiyyə avadanlıqlarının istehsal edilməsi sahəsində də yerli istehsalın şəbəkəsinin genişlənəcəyini görməmək olmaz. Əlbəttə, bütün bunlar siyasi və elmi qurumlar tərəfindən təhlil edilib əsaslandırıldıqdan sonra yekun qərara çevriləcəkdir.

*Ardı Səh. 12*

# İlham Əliyevin mükəmməl xilas modeli

Əvvəli-Səh-11

**Ölkəmizin bütün ziyalıları, elm adamlarımız da Prezidenti İlham Əliyevin koronavirusla mübarizə sahəsində ölkə vətəndaşlarının mənafelərinə həsr edilmiş ümummilli siyasətini ürəkdən dəstəkləyir və müdafiə edirlər**

Təbii olaraq elm sahəsində də artıq yeni bir mərhələ başlanmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının rəhbərliyi elmi kollektivləri postpandemiya dövrünün çağırışlarına doğru hazırlamaq, yönləndirmək sahəsində iş aparır, alimlərin diqqətini dünya elmində gedən proseslərə, yeni hədəflərə doğru istiqamətləndirir. Hazırda ilk növbədə görsənən bundan ibarətdir ki, koronavirusla mübarizənin əsas silahı olacaq vaksinlərin kəşf edilməsi zərurəti hazırkı şəraitdə biologiya və tibb elmlərini ön mövqeyə çıxarmışdır. Heç şübhə ola bilməz ki, Nobel Komitəsinin növbəti laureatları sırasında koronavirusu müalicə edəcək vaksini icad edəcək elm adamı və ya tibb mütəxəssisi ilk növbədə yer alacaqdır. Bundan başqa, immun sisteminin qüvvətləndirilməsinin bioloji və sosial-psixoloji əsaslarının öyrənilməsi də təbabətlə əlaqədar elm sahələri ilə humanitar elmlərin inteqrasiyası əsasında kompleks tədqiqatların aparılması zərurətini meydana çıxarmışdır.

Fikrimcə, iqtisad elmi də əsaslı şəkildə yenidən qurulmağa və öz hədəflərini postpandemiya dövrünün çağırışlarına doğru istiqamətləndirməyə borcludur. Artıq Azərbaycan Milli Elmlər Akademiyasının prezidentinin təşviqi ilə Fəlsəfə İnstitutunun "Pandemiya dövrünün çağırışları və elmin müasir vəzifələri" mövzusunda onlayn elmi seminar təşkil etməyə hazırlaşması, İqtisadiyyat İnstitutunun öz əməkdaşları arasında postpandemiya dövrünün iqtisadi münasibətlərinə dair proqnozlaşdırma üzrə sorğu keçirməsi yeni dövrün əks-sədasına elmi mühitin ilkin reaksiyalarının verildiyini göstərməkdədir. Eyni zamanda bu məsuliyyətli günlərdə akademiya əməkdaşlarının sosial şəbəkələrdə elmi mülahizələrlə çıxışları, bir çox elmi-tədqiqat institutlarının, Mərkəzi Elmi Kitabxananın onlayn rejimdə fəaliyyətlərini qurmaları, magistraturada distant təhsilin tətbiq olunması da yaranmış şəraitdə mümkün ola biləcək imkanlardan istifadə olunmasının təzahürüdür.

**Nəticə olaraq "Birlik və həmrəylik!" Prezident İlham Əliyevin ardıcıl dövlət siyasətinin əsasında qazandığı uğurların möhtəşəm yekunudur**

Nəticə olaraq bildirmək istəyirəm ki, ölkəmizin bütün ziyalıları kimi, elm adamlarımız da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin koronavirusla mübarizə sahəsindəki ardıcıl, yorulmaz və məqsədyönlü fəaliyyətini, ölkə vətəndaşlarının mənafelərinə həsr edilmiş ümummilli siyasətini ürəkdən dəstəkləyir və müdafiə edirlər. Hesab edirik ki, çətin və məsuliyyətli pandemiya dövründə respublikamızda xalqın demək olar ki, bütün təbəqələri arasında yaranmış birlik və həmrəylik Prezident İlham Əliyevin ardıcıl dövlət siyasətinin əsasında qazandığı uğurların möhtəşəm yekunudur.

Koronavirusla mübarizənin davam etdirilməsi və başa çatdırılması üçün karantin vaxtının uzadılması da ölkəmizdə bu ağrılı prosesdən minimum itkilərlə çıxmaq üçün vaxtında qəbul edilmiş növbəti düzgün qərardır. Həmçinin artırılmış karantin dövrü həm də postpandemiya mərhələsinə hazırlıq üçün də əlavə imkanlar yaratmağa xidmət edəcəkdir. İnanırıq ki, möhtərəm Prezidentimizin rəhbərliyi altında koronavirusla mübarizə dövründə olduğu kimi, postpandemiya mərhələsində də taleyüklü, məsuliyyətli vəzifələr uğurla həyata keçiriləcək, xalqımız daha xoşbəxt sabahlara qovuşacaqdır.

## Maska taxmamağa görə cərimələr təsdiqləndi!

Milli Məclisin dünən keçirilən plenar iclasında koronavirus pandemiyası dövründə maska taxmamağa görə cərimələri müəyyən edib. Trend-in məlumatına görə, bununla bağlı Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik parlamentdə müzakirəyə çıxarılıb.



Dəyişikliyə əsasən, epidemiya əleyhinə, sanitariya-gigiyena və karantin rejimləri dövründə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən tələblərin pozulmasına, habelə vəzifəli şəxslər tərəfindən həmin tələblərin pozulmasının qarşısının alınmamasına görə - fiziki şəxslər əlli manat məbləğində, vəzifəli şəxslər yüz manat məbləğində, hüquqi şəxslər iki yüz manat məbləğində cərimə edilir.

Məcəllənin 211.2-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən epidemiya əleyhinə, sanitariya-gigiyena vəkarantin rejimləri dövrü başa çatanadək təkrar törədilməsinə görə - fiziki şəxslər yüz manat məbləğində, vəzifəli şəxslər iki yüz manat məbləğində, hüquqi şəxslər dörd yüz manat məbləğində cərimə edilir. Dəyişikliklər müzakirələrdən sonra səsverməyə qoyularaq qəbul edilib.

## "Prezident tarixçilər, ictimai fəallar qarşısında yeni vəzifələr müəyyənləşdirdi"

Milli Məclisin deputatı Hikmət Babaoğlu xaricdə təhsil alan azərbaycanlı tələbələrin iyun ayı ərzində ölkəyə gətirilməsini təklif edib. SİA-nın xəbərinə görə, Milli Məclisin dünən keçirilən plenar iclasında çıxış edən deputat qeyd edib ki, xaricdə tədris bitdiyi üçün olan tələbə yataqxanaları fəaliyyətini dayandırması səbəbindən tələbələr çətinliklərlə üzləşə bilərlər.



Onun sözlərinə görə, bu baxımdan tələbələrin öz hesabına çarter reysləri vasitəsilə ölkəmizə gətirilməsi məsələsi aktualdır: "Azərbaycan Prezidentinin də mövqeyi belədir ki, vətəndaşlarımız xüsusi çarter reysləri ilə ölkəmizə gətirilsin. Düşünürəm ki bu məsələni həll etmək lazımdır".

H.Babaoğlu çıxışı zamanı həmçinin məcburi köçkünlər üçün salınan "Qobu Park 3" yeni yaşayış kompleksinin açılışına münasibət bildirib. Bunun ölkəmizdə məcburi köçkünlərə diqqət və qayğının bariz nümunəsi olduğunu vurğulayıb: "Prezident İlham Əliyev açılış zamanı çıxışında 90-cı illərin əvvəllərində Azərbaycan torpaqlarının işğalı ilə bağlı məsələyə toxunaraq həm sovet dövründə olan satqınları, xəyanətkarları və danos yazanları xüsusi vurğulamaqla, həm də torpaqlarımızın işğalına səbəb olan AXC-müsavat cütlüyünün xəyanətini bir daha tənqid etdi. Düşünürəm ki, bu çox vacib idi. Çünki, tarixi yaddaş milli yaddaşımızın əsas kompanentidir və öz tarixi faciələrini yaddan çıxaranlar onun yenidən yaşamağa məhkumdurlar. Bu mənada düşünürəm ki, Azərbaycan prezidentinin çıxışı mühüm bir kompleks sənəd idi və tarixçilər, ictimai fəal fərdlər qarşısında yeni vəzifələr müəyyənləşdirdi".

## Avstraliya separatçıların qondarma seçkisini tanımır



Australian Government
Department of Foreign Affairs and Trade

4 May 2020

Mr Michael Oyta
President
Australian Azerbaijanian Association Inc
azerbaijanylar@hotmail.com

Dear Mr Oyta

Thank you for your email of 9 April 2020 regarding the 'elections' which were recently held in Azerbaijan's occupied territory of Nagorno-Karabakh. I am replying on behalf of the Minister for Foreign Affairs and Minister for Women.

The Australian Government's long-standing policy is that it supports the territorial integrity of Azerbaijan and does not recognise Nagorno-Karabakh as an independent state. We do not recognise the so-called 'elections' which took place on 31 March 2020, nor the constitutional and legal framework within which they were held.

Moving forward, Australia support the efforts of the OSCE (Organisation for Security and Cooperation in Europe) Minsk Group in the peace process and does not seek to intervene. Dialogue between the communities and governments directly involved is the best way to achieve a peaceful resolution of this issue.

I trust this information is of assistance.

Yours sincerely

Jeremy Guthrie
A/g Assistant Secretary
Eastern Europe & Latin America Branch

Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağ bölgəsində qeyri-qanuni olaraq "prezident seçkisi" və qədim şəhərimiz Şuşada "andiçmə" şousunun keçirilməsi dünyada fəaliyyət göstərən diaspor təşkilatlarının və soydaşlarımızın hiddətinə səbəb olub. SİA-nın xəbərinə görə, bu günlərdə azərbaycanlıların diaspor təşkilatları fəaliyyət göstərdikləri ölkələrin dövlət və hökumət strukturlarına, eləcə də nüfuzlu beynəlxalq təşkilatlara ünvanladığı çoxsaylı müraciətlərdə Azərbaycanın işğal olunmuş torpaqlarında Ermənistanın himayəsi altında cinayətkar rejimin atdığı addımların Azərbaycan Konstitusiyasına və beynəlxalq hüquq normalarına, eləcə də münaqişə ilə bağlı aparılan sülh danışıqlarına zidd olduğu vurğulanıb.

Avstraliya-Azərbaycan Assosiasiyası (AAA) tərəfindən Avstraliya hökumətinə ünvanlanan məktubda işğal altında olan Dağlıq Qarabağda qeyri-qanuni şəkildə fəaliyyət göstərən erməni separatçılarının beynəlxalq hüquq normalarına və beynəlxalq ictimaiyyətin tələblərinə məhəl qoymamasına diqqət cəlb edilib. Avstraliya hökumətinin Xarici İşlər və Ticarət Departamentinin AAA prezidenti Mikayıl Oytaya cavab məktubunda bildirilib ki, Avstraliya hökuməti Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımır. Məktubda Avstraliya hökumətinin 2020-ci il martın 31-də erməni separatçıları tərəfindən keçirilən qondarma seçkiləri də tanımadığı və ATƏT-in Minsk qrupunun Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həll olunması istiqamətində cəhdlərini dəstəklədiyi qeyd olunub.

## Paşinyan: Ermənistanda koronavirusla əlaqədar vəziyyət ağırdır

Ermənistanda koronavirusa yoluxduğu təsdiq olunan 400-dən çox pasiyentin vəziyyəti ağır və ya son dərəcə ağırdır. SİA məlumatına görə, bu barədə ölkənin baş naziri Nikol Paşinyan bildirib. "Koronavirusa yoluxmuş 358 pasiyent ağır vəziyyətdədir, 58 nəfərin vəziyyəti son dərəcə ağırdır. 15 insan süni nəfəs aparatına qoşulub", - baş nazir onlayn-brifinqdə deyib. Ermənistanda martın 16-da iyunun 13-dək koronavirusun yayılması ilə mübarizə üçün fövqəladə vəziyyət elan edilib. Son məlumatlara görə, ölkədə COVID-19 8 927 insanda aşkar edilib, 127 nəfər ölüb.



## Bu məhsullara dövlət rüsumları ləğv edilib

Adlar verilən şərabçılıq məhsullarına görə bir sıra dövlət rüsumları ləğv edilib. SİA-nın məlumatına görə, bu, Milli Məclisin dünən keçirilən plenar iclasında müzakirəyə çıxarılan "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsində əksini tapıb. "Dövlət rüsumu haqqında" qanunun iki maddəsinin (18.62.2 və 18.62.3) ləğvi təklif olunub. Bu, adlar verilən şərabçılıq məhsullarına dövlət reyestrində qeydiyyata alınma üçün 10 manat və attestasiya üçün 10 manat dövlət rüsumunun ləğvini nəzərdə tutur. Müzakirələrdən sonra layihə səsə qoyularaq qəbul edilib.

# Sosial şəbəkələr nəzarətə götürülür

## *"Twitter"in və "Facebook"un bağlanması istisna edilmir*

***Bu gün soaial şəbəkələr həyatımızın ayrılmaz hissəsinə çevrilib. Bir növ insan həyatını, yaşamını sosial şəbəkələrsiz təssəvvür etmək mümükünsüzdür. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı sosial şəbəkələrin həyatımızda rolu əhəmiyyətli dərəcədə yüksəlib. Artıq bir çoxları, xüsusi ilə də gənc nəsil sosial şəbəkələrsiz qala bilmir. Gənclər bəzən gününlərinin əsas hissəini "Facebook", "Twitter", "İnstagram", "Google+", "Vkontakte", "Odnoklassniki" və digər sosial şəbəkələrdə keçirilər. Ancaq razılaşmaq lazımdır ki, sosial şəbəkələrin müsbət tərəfləri ilə yanaşı mənfi cəhətləri də mövcuddur. İkinci tərəf bəzən birinciləri üstələyir. Bu da arzu olunmazdır. Çünki, mənfi yanaşmalar və ya istifadə bəzən sərhədləri aşır ki, bundan da böyük toplumlar əziyyət çəkirlər. Faktlara əsasən demək olar ki, sosial şəbəkələr səbəbindən intihara cəhd edənlər də olur.***




Sosial şəbəkələrdə narkotik aludəçiliyinə cəlbetmə, insan alveri və ya insan orqanlarının ticarəti, dini cərəyanların təbliği və digər mənfi hallardan istifadə edilir. Bir sözlə qısaca onu demək olar ki, əgər sağlam, düşüncəli sosial şəbəkə istifadəçilər üzv olduqları sosial şəbəkələrdən sosiallaşmaq, ictimai həyatda baş verən aktual məsələlər ətrafında müxtəlif sorğular təşkil etmək, canlı yayım vasitəsilə iclaslar, müzakirələr keçirmək, onları maraqlandıran məlumatları asanlıqla əldə edə etmək, yeni dostlar, tanışlar tapmaq və onlarla ünsiyyəti qurmaq baxımından önəmlidirsə, əks sosial şəbəkə istifadəçiləri cəmiyyətlərdə çaşqınlıq yaratmaq, qarşıdurmalara dəstək vermək, terror aktları törətmək və bu kimi digər insanlığa ziddi olan əmməllərdən istifadə etməyə və ya onları yaymağa cəhdlər göstərirlər. Məhz ikincilərin fəaliyyəti nəticəsində 2012-ci il də Londondonda vətəndaş qarşıdurmaları, iğtişaşları baş verdi.

### Sosial şəbəkələrin cəmiyyət həyatında yaratdığı ağır fəsadlar

2018-ci ilin sonu 2019- cu ilin əvvələrində Fransada sisial şəbəkələrdə edilən çağırışlar nəticəsində "sarı jiletli"lər hərəkatı ilə Paris və ölkənin digər şəhərlərində dükanların, bazarların, evlərin talanması, avtomaşınnların daş parçaları ilə əzilməsi halları baş verdi. Çoxsaylı insan bu aksiyalarda yaralandı, həbs olundu. Eyni arzu olunmaz hadisələr İspaniyanın Katolaoniya əyalətində, Polşada, Misirdə və Almnaniyadada yaşanıb. Haqlı olaraq sosial şəbəkələrin getdikcə insan həyatına mənfi təsisr göstəməsi, insanların əmlakına, həyatlarına mənfi təsirləri siyasətçiləri, dünya ölkələrinin hakim təbəqələrini ciddi addımlar atmağa vadar etməkdədir. Bir qədər əvvəl Böyük Britaniyanın baş naziri Consin sosial şəbəkələrin nəzrətə alınması ideyası ilə çıxış edirdisə, artıq ABŞ prezidenti konkret addımlar atmağa başlayıb. Donald Tramp ölkədə sosial şəbəkələrin fəaliyyətinin tənzimlənməsi haqqında sərəncam imzalayıb.

Məsələ ilə bağlı ABŞ prezidenti Donald Tramp Ağ Evdə jurnalistlərə verdiyi məlumatda bidirib ki, sərəncam vətəndaşların hüquqlarının qorumasına xidmət edəcək: "Bu gün söz azadlığını, ABŞ vətəndaşlarının hüquqlarını qorumağa xidmət edən sərəncam imzaladım. "Twitter" kimi sosial şəbəkələr neytral platformanı qoruduqlarına dair fərziyələrə əsaslanmaqla misli görünməmiş məsuliyyətdən qorunmaq imkanına sahib idilər. Ancaq bu, belə deyil. İcra olunan sərəncam kommunikasiya etikasına dair qanunun 230-cu hissəsinə əsaslanaraq yeni qaydaların yaradılması məqsədini daşıyır. Senzura və ya siyasi aksiyalarda iştirak edən sosial şəbəkələr artıq məsuliyyət qorunmasına sahib olmayacaqlar, bu böyük bir qərardır".

D.Trampın sözlərinə görə, belə bir sərəncamdan əvvəl sosial şəbəkələr "istədiklərini edə bilirdilər". ABŞ prezidenti həmin saytlar tərəfindən hər hansı "aldadıcı və ya zərərli ticarət fəaliyyəti"nə yol verilməsi cəhdlərinin izlənilməsini Federal Ticarət Komissiyasına tapşırıb. D.Tramp, həmçinin jurnalistlərin suallarını cavablandırarkən, "Twitter"in bağlanmasının mümkünlüyünü də istisna etməyib.

### Sosial şəbəkələrə nəzarət müsbət nəzticələr verə bilər

"Dünya ölkələrində sosial şəbəkələrin fəaliyyətinin təmzinlənməsi ilə bağlı müxtəlif təcrübələr var. Sosial şəbəkələrin fəaliyyət mahiyyətindən asılı olaraq bir sıra ölkələr ən radikal addımları belə atıblar. Çində, Rusiyada, İranda, Türkiyədə, Türkmənistanda, Özbəkistanda, Tacikistanda, Misirdə, Vyetnamda, Səudiyyə Ərəbistanında, Pakistanda və başqa ölkələrdə sosial şəbəkələrin müxtəlif seqmentləri qadağan olunub. Bütün bunlar isə sosial şəbəkələrin son zamanlar ünsiyyət qurma mahiyyətindən çox mənəvi və siyasi terrorla məşğul olması ilə əlaqədardır. Bu sıraya görünür ABŞ da qoşulmaq fikrindədir". Bunu "Səs" qəzetinə açıqlamasında Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.

Sədaqət Vəliyeva bildirib ki, Azərbaycanda sosial şəbəkələrdən istifadə sərbəstdir və onun heç bir seqmenti qadağan edilməyib: "İnternet istifadəçilərinin sayı isə ölkə əhalisinin 80 faizdən çoxunu təşkil edir. Təkcə facebook istifadəçilərinin sayı 3 milyon nəfərə yaxındır. Amma çox təəssüflər olsun ki, bəziləri internet azadlığını, söz və özünüifadə haqlarını səhv başa düşürlər və insanlarımızı, xüsusilə də siyasətçilərimizi, müəllimlərimizi, həkimlərimizi, hətta ən sadə vətəndaşlarımızı belə təhqir edirlər, şəxsiyyətlərini alçaldırlar. Bu günə qədər xatırlayıram ki, bələdiyyə seçkilərindən sonra Əli Kərimli Sevinc Osmanqızının youtube kanalında açıq-aşkar trollarını müəllimləri ağır qınağa, yeni təhqirə səslədi. Səhəri gün isə onun nəzarətində olan facebook səhifələrində müəllimlər ən ağır şəkildə təhqir olundular. Məqsəd əlbəttə ki, aydın idi. Cəmiyyətimizin ən aktiv kəsimi olan müəllimlərimizi seçki prosesindən kənar tutmaq, ümumiyyətlə qadın cinsindən olanları seçkilərə gəlməsinə mane olmaq idi".

"Son günlər Milli Məclisin və respublikamızın rəhbərliyinə qarşı da çirkin təhqirkampaniyası aparılmaqdadır" -deyən Sədaqət Vəliyeva bu cür iyrənc hərəkətlərin bir daha baş verməməsi üçün mütləq sosial şəbəkələrin fəaliyyətinin tənzimlənməsi, məsuliyyət hissinin artırılması və lazım olanda cəza tətbiqi məsələlərinə baxılmalıdır: "Doğrudur, Cinayət Məcəlləsində təhqirə görə cəza nəzərdə tutulur. Amma bu, sosial şəbəkələrdəki saxtakarlıqların qarşısının alınmasına kömək etmir. İndiki məqamda ən yaxşı hal sosial şəbəkələrdə təhqirlə məşğul olan, ictimai rəyi çaşdırmağa cəhd edən, yalan məlumatlar yayan səhifələr, profillər əngəllənməlidir, sahibləri dəqiq bəllidirsə, məsuliyyətə cəlb edilməlidir. Yaxşı olar ki, sosial şəbəkələr üzrə cinayət həyata keçirənlərin cəzalandırılması beynəlxalq fəaliyyət formasına keçsin. Məsələn, biri oturub Almaniyada, Fransada, ABŞ-da və facebook, youtube üzərindən ağzına gələni danışır. Bəs, bu cür kibercinayətkarlar, mənəvi terrorçular necə cəzalandırılsın? Məhz, bunun da mexanizmləri üzərində düşünülməlidir".

Bir sözlə, dünyanın sakit və sabit ahəngini pozan sosial şəbəkələrdən qurtulmaq və ya nəzarətə götürülməsi üçün dövlətlər səiyyəsində əməli addımlar atılmaqdadır. Əgər nəticələr müsbət olsa yeni dünyamızda yeni baxışların və yanaşmaların olacağı şübhəsizdir. Təbii ki, bundan qazanan cəmiyyətlər və dövlətlər olacaq.

***İ.ƏLİYEV***

# Azərbaycanda bələdiyyə sədrinin qanunsuz əməlləri ifşa olundu

**Ölkəmizdə əhalinin sosial rifahına kölgə salan korrupsiya və rüşvətxorluq kimi neqativ amillərə, o cümlədən əhalini narahat edən müxtəlif sahələrdə korrupsiya hüquqpozmaları törətmiş vəzifəli şəxslərin qanun qarşısında ifşa və məsuliyyətə cəlb edilməsi istiqamətində prokurorluq orqanları tərəfindən ardıcıl və təxirəsalınmaz tədbirlər davam etdirilir. Baş Prokurorluqdan SİA-ya bildirilib ki, Masallı rayonun Ərkivan-Kosakül ərazisində kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin qanunsuz olaraq qazılıb daşınması barədə Masallı rayon prokurorluğundan daxil olmuş material Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.**



Həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində Masallı rayon Ərkivan bələdiyyəsinin sədri vəzifəsini icra etmiş Anar Rəcəbovun vəzifə səlahiyyətlərindən sui-istifadə edərək "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərini qəsdən pozaraq 2015-2016-cı illər ərzində bələdiyyənin mülkiyyətində olan 5 hektar kənd təsərrüfatı kateqoriyalı, örüş təyinatlı torpaq sahələrinin xüsusi texnikanın köməkliyi ilə qazılaraq gil və qum çınqıl yatağının daşınması nəticəsində yararsız vəziyyətə salınmasına şərait yaradıb təbiətə ümumilikdə 644 min manat məbləğində ziyan vurmasına şübhələr üçün əsaslar müəyyən edildiyindən faktla bağlı Cinayət Məcəlləsinin 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.

Hazırda iş üzrə qeyd olunan qanunsuz halların tam və hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin və qanuni mənafeləri pozulmuş vətəndaşların dairəsinin müəyyənləşdirilməsi, habelə vurulmuş ziyanın ödənilməsinin təmin olunması istiqamətində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin növbəti layihəsi - Hövsan Yaşayış Kompleksində mənzillərin güzəştlə satışı barədə ELAN

MİDA

Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi Zığ şossesi-Hava Limanı 12-ci km. “22” ünvanında yerləşən Hövsan Yaşayış Kompleksinin 1 saylı binası üzrə 249 mənzilin satışı 30 iyun 2020-ci il tarixində saat 11:00-da başlayacaq və 7 iyul 2020-ci il tarixi saat 11:00-dək davam edəcəkdir.

“Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası”na uyğun olaraq **gözləmə qaydasında mənzillərin seçimi** 3 iyul 2020-ci il tarixində saat 11:00-da başlayacaq və 7 iyul 2020-ci il tarixi saat 11:00-dək davam edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 1113 nömrəli Fərmanına əsasən Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi “Elektron hökumət” portalı üzərində (www.e-gov.az) “Güzəştli mənzil” sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

Yalnız “Güzəştli mənzil” sistemində elektron kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdir. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq, mənzillərin seçimində bərabər hüquqa malikdir.

“Güzəştli mənzil” sistemindən istifadə qaydası ilə bağlı ətraflı məlumatla, o cümlədən mətn və video formatlı təlimatlarla www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində “Güzəştli mənzil sistemi” keçidi vasitəsilə tanış olmaq mümkündür.

## Satışa çıxarılan mənzillər barədə ümumi məlumat:

Satışa ümumilikdə 249 mənzil çıxarılır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi isitmə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz və elektrik sayğacları ilə təmin edilmiş vəziyyətdə təklif olunur.

Bina Azərbaycan Respublikasının Dövlət Tikinti Normalarına (AzDTN) uyğun layihələndirilib və inşa olunub. Bununla bağlı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinin 28.02.2018-ci il tarixli 24956 nömrəli müsbət rəyi mövcuddur.

**Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 1 saylı Bakı Ərazi İdarəsi tərəfindən mənzillərin mülkiyyət hüquqlarına dair “hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış”lar verilmişdir.**

| Bina № | Binanın yerləşdiyi torpaq sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 7076,02 | 7 | 18 | 1 | 39 | 37.8 - 39.2 | 47.7 - 49.96 | “HN Construction” MMC (binanın 1-ci və 3-cü seksiyaları) / Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi şossesi, ev 185, mənzil 14<br>“Perlit” MMC (binanın 4-cü və 5-ci seksiyaları) / Gəncə şəhəri, Azərbaycan Dövlət Aqrar Universitetinin yataqxanası, ev 6 | 29 dekabr 2019-cu il |
| | | | | 2 | 142 | 49.9 - 63.1 | 61.54 - 78.56 | | |
| | | | | 3 | 68 | 67.2 - 73.3 | 84.39 - 88.15 | | |

## Satış şərtləri və qiymətlər:

Bu elan çərçivəsində mənzillərin satışı həm **ipoteka kreditindən istifadə etməklə**, həm də **öz vəsaiti hesabına** ödəniş üsulu ilə nəzərdə tutulmuşdur.

***Qeyd:*** *“Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası”nın 5.6-cı bəndinə əsasən mənzilin dəyərinin* ***ipoteka krediti hesabına ödəniş üsulunu yalnız ilkin razılıq qərarını alaraq elektron kabinetində yerləşdirilməsini təmin etmiş şəxs seçə bilər.***

1 otaqlı mənzillərin qiyməti – **32 130** manatdan,
2 otaqlı mənzillərin qiyməti – **42 415** manatdan,
3 otaqlı mənzillərin qiyməti – **57 120** manatdan başlayır.

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Vətəndaş mənzili Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun güzəştli ipoteka krediti vəsaiti hesabına aldıqda:

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | | |
|---|---|---|---|---|---|
| | | | *1 otaqlı* | *2 otaqlı* | *3 otaqlı* |
| 4% | 3-30 il | 10% | **138-143 manat** | **182-230 manat** | **245-268 manat** |
| * Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda. | | | | | |

**DİQQƏT! Mənzilə güzəştli ipoteka krediti vasitəsilə sahib olmaq istəyən vətəndaş minimal ilkin ödənişdən artıq ödənilən məbləğə görə, mənzilin satış qiymətini tam həcmdə öz vəsaiti hesabına birdəfəlik ödəyən vətəndaş isə bütün məbləğə əlavə 10% endirim əldə edəcək.**

**Mənzilə öz vəsaiti hesabına birdəfəlik ödəniş edərək sahib olmaq istəyən vətəndaş üçün mənzillərin satışı aşağıdakı qiymətlərdən başlayır:**

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manat) |
|---|---|---|---|
| 1 | 32 130 | 3 213 | **28 917** |
| 2 | 42 415 | 4 241 | **38 174** |
| 3 | 57 120 | 5 712 | **51 408** |

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Hövsan Yaşayış Kompleksinin **www.hovsan.mida.gov.az** internet səhifəsinə daxil olaraq satışa çıxarılan hər bir mənzilin (və otaqlarının) dəqiq ölçüsü, qiyməti, tətbiq edilən güzəştlər və əlavə endirimlər, agent banklar haqqında məlumatla tanış olmaq, habelə ipoteka və güzəştli mənzil kalkulyatorları vasitəsilə müvafiq hesablamalar aparmaq mümkündür.

Güzəştlə mənzil əldə etmək hüququ olan şəxslər, mənzili güzəştlə əldə etmək üçün ərizənin təqdim olunması qaydası, gözləmə qaydasında mənzillərin seçimi və mənzillərin satış şərtləri, agent banklar barədə ətraflı məlumatla **www.mida.gov.az** və **www.mida.az** internet səhifələrində və ya müvafiq “ASAN xidmət” mərkəzlərinə (1, 3, 5 saylı, Sumqayıt və Gəncə), habelə “108” çağrı mərkəzinə müraciət edərək tanış ola bilərlər.

***Qeyd:*** *“Güzəştli mənzil” sisteminin istifadəçiləri satış modulundan istifadəyə dair və gözləmə qaydasında mənzil seçiminə dair təlimatlar ilə öz elektron kabinetlərinin müvafiq bölmələrində və ya www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində “Güzəştli mənzil sistemi” keçidi vasitəsilə tanış ola bilərlər.*

# Ermənilərin Tbilisi şəhərinə iddiaları:

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Tbilisinin merləri guya ermənilər olublar

Ermənilər Tbilisinin guya qədim erməni şəhəri olduğunu iddia edirlər. Yaşadıqları ölkələrdə separatizmlə məşğul olan, milli maraqları və xəstə "erməniçilik" ideyaları naminə saxtakarlıqdan, yalanlardan əl çəkməyən ermənilər qonşu Gürcüstanın paytaxtı Tbilisinin də qədim erməni şəhəri "Tpxi" olduğunu iddia edirlər. Hələ sovet dövründə B.S.Nalbandyanın 1961-ci ildə İrəvanda çap olunan "Tbilisi qədim və orta əsrlərin ədəbi mənbələrində" adlı saxta əsərində Tbilisini qədim erməni şəhəri kimi təqdim etmişdir. Ermənilər Tbilisiyə "Tpxi" deyirlər.Gürcüstanın "Saerto" qəzetində 2017-ci il dekabrın 7-də "Ermənilər Tbilisinin adını dəyişdirmək istəyirlər" adlı yazıda müəllif Georgi Qorqadze ermənilərin əsassız iddialarına qarşı Gürcüstan hökumət orqanlarının passivliyini aşağıdakı kimi kəskin tənqid etmişdir: "Biz unutmamalıyıq ki, hələ keçən əsrdə (XX əsr) ermənilər Gürcüstana qarşı müharibəyə başladılar. Lakin onda heç nə əldə edə bilmədilər. Ancaq ermənilər arzulayırlar ki, günlərin bir gözəl günündə, əlbəttə, başqalarının köməyilə onlar Tbilisini "qaytaracaq" və onu daha "yaxşı" erməni adı ilə "Tpxi" adlandıracaqlar."

Ermənilər Tbilisinin özləri tərəfindən tikildiyini və əksər şəhər merinin erməni olduğunu iddia edirlər. Halbuki ermənilər öz xislətlərinə uyğun olaraq bəzi rus soyadlarını saxtalaşdıraraq erməniləşdirmişlər. Məsələn, onlar qədim Tbilisinin merləri olan rus zadəgan nəslindən İzmayılovu İzmayılyans və İvanı Ovanes kimi təqdim edirlər.

Ermənilərin Tbilisiyə əsassız iddiaları gürcü-erməni qarşıdurmasına səbəb olmuşdur. Vətənpərvər gürcü ziyalıları ermənilərin bu cür əsassız iddialarını ifşa etmişlər. Buna görə də, Gürcüstanda XIX və XX əsrlərdə er-mənilər əleyhinə güclü hücumlara başlamışdılar. 1897-ci ildə Tiflisdə nəşr olunan "İveriya" qəzetində çap olunmuş və ermənilərə həsr olunmuş bir məqalədə bir çox ritorik suallar verilir: "Tiflis hansı əsasla erməni şəhəridir: coğrafi mövqeyinə görəmi, ərazi qanunlarına görəmi, yaxud hansı dövlət və beynəlxalq hüquqla? Ermənilər haradadır, Tiflis harada? Onların əlləri haradan haraya uzanır? Onların satın aldıqları evlər onlara məxsusdurmu, bunu hələ aydınlaşdırmaq lazımdır. Lakin Tiflis Gürcüstan ərazisində yerləşir. Burada ermənilərə heç nə məxsus deyildir." İlya Çavçavadze və Akaki Sereteli kimi görkəmli gürcü ziyalıları erməniləri bütün xəyanətlərinə görə ittiham etmişlər.

2017-ci il mayın 29-da erməni Vigen Avetisyanın "Maraqlı tarix" seriyasından nəşr etdirdiyi erməni fondunun eksperti "Noravank" jurnalında Gürcüstan Milli Kitabxanasının fondlar üzrə direktor müavini erməni əsil-li tarixçi Levan Taktakaşvilinin "Tbiliselebi" ("Tbilislilər") jurnalının 31-ci sayında "Ermənilər Tbilisini necə inşa etdilər?" başlıqlı müsahibəsi olduğu kimi nəşr etdilmişdir.

Məlum olduğu kimi, Tiflis şəhərinin idarəçiliyini bir vaxtlar şəhər başçısı və ya murovlar yerinə yetirmişlər. Rusiya Gürcüstanı XIX əsrdə işğal etdikdən, Tiflis quberniyası yaradıldıqdan sonra seçilmiş şəhər şurası mövcud olmuşdur. Bu şəhər administrasiyası da öz növbəsində şəhər merini seçirdi. Levan Taktakaşvilinin saxta informasiyasına görə, "öz şəhərinə əksəriyyəti etnik ermənilər olan şəhər merləri qədər sədaqətlə xidmət edən olmamışdı." Müsahibədə deyilir: "Birinci Tiflis şəhər başçısı İzmerov 1876-cı ildə seçilmişdir. Həmin il yeganə gürcü olan Dmitri Kipiani şəhər meri olmuşdur." 1905-1910-cu ildə Levan Taktakaşvili Tbilisi merləri arasında Vasili Çerkezovun (Çerkezeşvili) adını xüsusi çəkir. "O, o qədər yaxşı şəhər başçısı olmuşdur ki, onun adı tarixə düşmüşdür. Hətta Tiflisdə onun adına küçə salınmışdır. Soyadlarının sonu bizi yanıltmasın çünki o zamanlar bütün əhalinin etnik mənşələrindən asılı olmayaraq soyadlarının sonu "ov"la bitirdi.

"Nə üçün Tbilisi şəhərinin əksər şəhər başçıları ermənilər olmuşdur?" sualına saxtakar tarixçi belə cavab verir: "Bu fakt heç kəsi təəccüblərindirməsin. O vaxtlar Tbilisi şəhərinin əhalisinin əksəriyyəti ermənilərdən ibarət idi. Ticarət on-ların əllərində idi, şəhər torpağı onlara məxsus idi. Bu torpaqlarda tikilən bütün evlər ermənilərə mənsub idi. O vaxtlar vəzifəli şəxslər və xırda tacirlər arasında çox az sayda meqrellər və imeretlilərə təsadüf etmək olardı, ticarətin əsas hissəsi ermənilərin əlində idi." Cənubi Qafqaza o cümlədən Gürcüstana və Tiflisə XIX əsrdə məqsədyönlü köçürülən ermənilər artıq bu bölgəri "özününkü" hesab edirlər. O vaxtlar şəhər deputatı olmaq istəyənləri üç dərəcəyə mənsub təbəqələr (xmosnebilər) arasından seçirdilər. Deputatlar əmlakı olanlar, əmlaka, mülkə görə vergi ödəyənlər arasından seçilirdi. Yalnız yəhudilər səs hüququna malik deyildilər. Şəhər idarəsində gürcülər və ruslar azlıq təşkil edirdilər. "Tbilisinin varlı təbəqələri-xmosnebilərin əksəriyyəti ermənilər idi, ona görə də onlar ermənini şəhər başçısı görmək istəyirdilər. Birinci dərəcəli xmosnebilər dar burjua maraqlarını güdür, ikinci və üçüncü dərəcəli xmosnebilərdən fərqli olaraq milli maraqlara az diqqət yetirirdilər. Birinci dərəcəli xmosnebilər Avropa yönümlü idilər, onlar Tiflisi Avropa şəhəri kimi görmək istəyir-dilər."

L.Taktakaşvili varlı erməniləri erməni milli maraqlarını qorumadıqlarına, millətçilik, erməniçilik təbliğ edən erməni qəzetlərinə, erməni məktəblərinə investisiya qoymadıqlarına görə tənqid edir, onları kosmopolitizmdə-avropalaşmaqda ittiham edir. O, yalnız ikinci, üçüncü dərəcəli xmosneb erməniləri "şovinizminə" görə alqışlayır, onların erməni milli maraqlarına xidmət etdiklərini Tbilisidə erməni maarifçiliyinin inkişaf etdirilməsi erməni qəzetlərinin nəşrinə və erməni məktəblərinə yardım etdiklərini, bu işdə onları Qriqoryan kilsəsinin dəstəklədiyini göstərir.

Birinci dərəcəli varlı ermənilərin Tiflisdə Avropa tipli evlər tikdirdiklərini, şəhəri təmizlədiklərini iddia edən erməni tarixçisi öz doğma şəhərinin meri seçilmiş (1876-1879-cu illər) Dmitri Kipianini gürcü millətçiliyi mövqeyində durduğuna görə "ittiham edir". Halbuki D.Kipiani gürcülər arasında qiraət və yazının yayılması üçün cəmiyyət yaratmışdı. Guya erməni merləri xüsusən "gizli şəkildə erməni məsələsini müdafiə edən Matişov və biznesmen Pitoyev

Tiflisdə Vera bazarını, şəhərin su kanalını, şəhərin indiki meriyasının binasını tikdirmiş, təhsili inkişaf etdirmiş, indiki Rustaveli teatrının binasını tikdirmiş, teatr və opara teatrını təşkil etmişdilər.

-Bu zaman gürcülər nə edirdilər? Onlar Tbilisidə "erməni şəhəri"nin necə tikildiyini sadəcə seyr edirdilər mi?-sualına saxtakar tarixçi erməniysayağı cavab verir: "Yalnız köhnə Tiflisin Ançisxatiyə bitişik əraziləri gürcülərə, xüsusən Orbelianilərə məxsus idi. Onlar vaxtlarını yaxşı keçirirdilər. Qriqor Orbeliani ermənilərə qarşı mübarizə aparırdı. Gürcülər artıq Tiflisi itirməyə alışırdılar. Hərçənd ki, 1921-ci ildə biz həqiqətən Tiflisi qaytardıq, o yenidən gürcü şəhəri oldu."[5]

"- Hansı dövrlərdə Tiflis gürcü şəhəri olmuşdur?"- Sualına erməni tarixçisi əsl erməni xislətilə cavab verir: "1840-cı ildən 1917-1918-ci illərə qədər, hətta Gürcüstan müstəqil dövlət olanda da Tiflis erməni şəhəri olaraq qalırdı. Ən mühümü odur ki, gürcülər erməniləri oradan qovmadılar, onlar özləri öz pullarını qorumaq üçün oradan qaçdılar. Öz aramızdır onlar pulları Yerevana (İrəvana) deyil, Parisə, Avropaya apardılar.Bütün varlı ermənilər Avropaya köçdülər.

- Bəs ermənilər niyə Yerevanı (İrəvanı) Avropa şəhərinə çevirmədilər? - sualına L.Taktakaşvili belə cavab verir: "Yerevan qalası əyalət şəhəri idi. Orada bir dənə də olsun gözəl, yaxşı bina yox idi. Həm də ermənilər Yerevanda əhalinin əksəriyyətini təşkil etmirdi, orada müxtəlif millətlərdən olan insanlar yaşayırdılar."

Buradan bir həqiqət üzə çıxır ki, ermənilər İrəvana erməni şəhəri kimi baxmırdılar. Bu həqiqətən də belə idi. XIX əsrdə İrəvan Azərbaycanın ən qədim şəhərlərindən biri idi. İkincisi, erməni tarixçisi milli, gözəl Şərq üs-lubunda tikilmiş İrəvandakı binaları "görmək istəməmişdir." Üçüncüsü, İrəvanda "müxtəlif millətlərdən olan insanlar" deyil, məhz avtoxton azərbaycanlılar yaşayır və onlar ermənilərdən çox idilər.

Erməni tarixçisi bilmədən bir həqiqəti də etiraf edir ki, ermənilər Tiflisə "Ermənistan"dan 1801-ci ildə gəlmişlər. Onların Tiflisə XIX əsrin əvvəllərindən gəlməsi həqiqətdir. Ancaq hansı "Ermənistandan" gəlməsi isə yalandır. Çünki XIX əsrdə "Ermənistan" adlı yer yox idi. Ermənistan tarixdə ilk dəfə yalnız 1918-ci ildə Azərbaycanın İrəvan xanlığı və Qərbi Azərbaycan ərazisində yaradılmış ilk erməni dövlətidir.

L.Taktakaşvili yazır ki, ermənilərin səhvləri ondadır ki, onlar iki hissəyə - erməniləri dəstəkləyən millətçilərə və yüksək dərəcəli avropalaşmaq haqqında düşünən ermənilərə bölünmüşdülər. "Ermənilər birləşə bil-mirdilər, kim hara gəldi qaçırdı." Tarixçi şəhər başçılarının erməni soyadı daşımalarının onların erməni yönümlü olmasını göstərmədiyini qeyd edir. O, bəzi erməni şəhər başçılarının şəhər üçün dəhşətli fəaliyyətindən də bəhs edir."Onlar gürcüləri hər cür təhqir edirdilər. Onları ikinci, üçüncü kateqoriyalı təbəqələr seçmişdi. Onu da qeyd etmək lazımdır ki, gürcülər ruslarla birlikdə ermənilərə qarşı çıxış etdilər. Gürcülər bilirdilər ki, onlar yalnız ruslarla birlikdə ermənilərin öhdəsindən gələ bilərlər. Onlar ikinci və üçüncü kateqoriyalı təbəqələrə qarşı çıxış edirdilər, çünki birinci kateqoriyalı təbəqələr nə gürcü, nə də erməni problemləri ilə maraqlanırdılar". Ancaq müəllif qəsdən varlı təbəqələrin erməni məsələsinə "laqeydliyini" pərdələyir. Çünki istər aşağı təbəqə, istərsə də varlı təbəqə, istər kommunist, sosial-demokrat, daşnak, faşist, ziyalı, kəndli erməni bir məsələdə-erməni milli ideyası, ermənilik ətrafında sıx birləşir. Onun həyata keçməsi üçün səylərini, var-dövlətlərini əsirgəmirlər.

Müəllif erməni varlı təbəqələrinin pulu Tiflisdə deyil, Bakı neftindən əldə etdiklərini, aşağı təbəqələrin gürcü zadəganları ilə yaxınlıq etməyə cəhd etdiklərini, hətta Gürcüstanın ən varlı adamlarından, aristokrat nəslindən olan Qriqol Orbelianın dəfninə şəhər idarəsinin bir dənə də olsun çələng qoymadığını, bir nəfər də erməni varlısının iştirak etmədiyini göstərir və bunu belə əsaslandırır: "Tbilisi onlar (ermənilər) üçün erməni şəhəri idi, hətta gürcülər şəhəri gürcü şəhəri adlandıranda ermənilər gülürdülər. Öz aramızdır Funiklyor da erməni pulu ilə tikilmişdir." Bu isə əsl erməni həyasızlığıdır. Erməni tarixçi Tbilisidə indiki Marcanaşvili adına teatr binasını da Zubalaşvili adlı bir erməninin öz evi kimi tikdirdiyini, sovetləşmə zamanı o, Tiflisdən qaçarkən gürcülər tərəfindən evinin tar-mar edil-diyini, öz əmlakının Fransa muzeylərindən birinə verdiyini qeyd etdikdən sonra fikrini belə tamamlayır: "Bizim qələbəmiz onda idi ki, erməni varlıları üçün sovet idarəçiliyi qəbuledilməz idi və öz pullarını xilas etmək üçün xaricə qaçırdılar. Ruslar isə onların yerinə dağlarda yaşayan gürcüləri yerləşdirirdilər. Göründüyü kimi, tale bizə gülmədi və Tbilisi yenidən gürcü şəhəri oldu. Lakin bu şəhər üçün kifayət qədər işlər görmüş insanları unutmaq olmaz." Saxtakar tədqiqatçı Tbilisinin "yenidən gürcü şəhəri" olmasını ermənilər üçün taleyin ən ağır oyunu olduğunu bildirir.

***Vahid Ömərov***
***Fəlsəfə üzrə fəlsəfə doktoru. dosent***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

1 iyun

SƏS

Son səhifə

# Alman qapıçı “Barselona”nın təklifinə “yox” dedi!



“Barselona” futbol klubunun rəhbərliyi Mark-Andre ter Ştegenlə müqavilənin müddətini uzatmaqla bağlı danışıqları davam etdirir.

Qol.az İspaniya mətbuatına istinadən xəbər verir ki, 2022-ci ildə klubu ilə müqaviləsi başa çatacaq alman qolkiper Kataloniyada qalmağın əleyhinə deyil. Amma tərəflər maddi məsələdə razılığa gələ bilmirlər. Mənbə iddia edir ki, “Barselona” Ter-Ştegenə illik 6,3 milyon avro (üstəgəl bonuslar) təklif edir. Amma bununla razılaşmayan qapıçı 10 milyon avro tələb edir. Yaxın günlərdə tərəflər arasında yeni danışıqların keçiriləcəyi gözlənilir.

# Diqqət: Siqaret çəkənlərin koronavirusa yoluxma riski çoxdur!

**Tütün məhsullarından istifadə edənlərin koronavirusa yoluxma riski çəkməyənlərdən dəfələrlə çoxdur. Xezerxeber.az xəbər verir ki, bu barədə TƏBİB-in məlumatında bildirilib. Məlumatda qeyd olunub ki, siqaret çəkməyin insan beyninə olan ən önəmli zərəri, insult keçirmə riskini artırmasıdır. İnsult beyni qidalandıran damarların tıxanması və ya yırtılaraq qanaması nəticəsində beynimizin zərər gördüyü ölüm və ya iflic ilə nəticələnən hadisədir.**

Bildirilib ki, siqaret çəkilərkən tənəffüs yollarında, ağciyərlərdə müxtəlif xəstəliklər əmələ gəlir. Bunlara ağciyər xərçəngi, xroniki bronxit, astma, müxtəlif infeksiyalar, hətta allergik xəstəliklər aiddir. “Uzun müddət tütün məhsullarından istifadə etmək ürək xəstəlikləri və insult keçirmə riskini 2-4 dəfə artırır.

Siqaret mədənin ifrazını artırır və mədə xorası, mədə xərçənginin inkişafını asanlaşdırır. Siqaret çəkənlərin çəkməyənlərə nisbətən mədə və bağırsaq xərçənginə tutulma riski 2 dəfə çoxdur. Siqaret çəkənlərdə çəkməyənlərə nisbətən görmənin itirilməsi riski 2 qat daha çoxdur. Bunun səbəbi də tütündən çıxan tüstünün gözlərə pis təsiri gözə



gedən qan damarlarının tıxanma təhlükəsidir,-deyə məlumatda qeyd olunub.

# Son 1 il ərzində “Nar”ın 4G istifadəçilərinin sayı 66% artıb

nar

Hər zaman abunəçilərini yüksəkkeyfiyyətli və kəsintisiz internetlə təmin edən “Nar”ın 4G istifadəçilərinin sayı 2020-ci ilin birinci rübündə ötən ilin müvafiq dövrü ilə müqayisədə 66% artıb. Mobil operatorun təqdim etdiyi sərfəli internet paketləri sayəsində internet trafikinin həcmində 51% artım qeydə alınıb. Qeyd edək ki, artıma bütün ölkə ərazisində LTE/LTE-A texnologiyalı baza stansiyalarının quraşdırılması, smartfon penetrasiyasının artımı, eləcə də müştərilərin internetə olan ehtiyaclarını qarşılamaq məqsədilə təqdim edilən məhsullar təsir edib.

Abunəçilərini yüksəkkeyfiyyətli və sürətli 4G şəbəkəsi ilə təmin etmək məqsədilə “Nar”, cari ilin ilk üç ayı ərzində paytaxtda və regionlarda əhatə dairəsini genişləndirməyə davam edib. Belə ki, 2020-ci ilin birinci rübü ərzində ölkə ərazisində 50-yə yaxın 3G və 4G/4.5G baza stansiyası quraşdırılıb. Müştərilərinə hər zaman kəsintisiz və sürətli internet təcrübəsi təqdim edən “Nar”ın 4G istifadəçilərinin sayı 1 milyonu ötüb. Hazırda mobil operatorun 4G istifadəçilərinin sayı Bakı üzrə 67%, regionlar üzrə isə 33% təşkil edir.

## BAŞSAĞLIĞI

“Səs” qəzetinin Baş redaktoru Bəhruz Quliyev və qəzetin kollektivi iş yoldaşları

**Rəfiqə Hüseynovaya**

qardaşı Akif müəllim vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüzünlə baş sağlığı verirlər.

**Allah rəhmət eləsin**

# Səhər yeməyi zamanı yulaf və çərəzlər lif qaynağı kimi əvəzsizdir



Bəzən səhərlər iştaha olmadığından yüngül qidalara üz tutur və ya şirniyyatla çay içməklə kifayətlənənlər olur. Mütəxəssislərin fikrincə, bu, düzgün hesab olunmur. Yuxudan oyanan kimi balanslı qidalanmaq üçün mütləq bir və ya iki stəkan su içmək lazımdır, çünki səhər oyananda qanda şəkər aşağı düşür və orqanizmin enerjiyə ehtiyacı artır. Ona görə də səhər yeməyi mütləq protein, karbohidrat və faydalı yağlarla zəngin olmalıdır.

Yumurta ana südündən sonra ən gözəl protein qaynağıdır. Pendir, kəsmik, şor, süzmə, süd kimi məhsullar protein qaynaqları hesab olunur. Karbohidrat kimi qara çörəkdən istifadə etmək olar, çünki daha az kalorilidir, bəyaz çörəyin qlisemik indeksi yüksəkdir və qanda şəkəri sürətlə yüksəltdiyinə görə gün ərzində daha çox acdıra bilər. Buna görə də kəpəkli və çovdar unundan, tam buğda unundan hazırlanmış bir-iki dilim çörəkdən istifadə edilməlidir.

Həkim-diyetoloq Ləman Süleymanovanın AZƏRTAC-a verdiyi məlumata görə, səhər yeməyi üçün yulaflı sıyıq da faydalı hesab olunur: “Yulaf karbohidratla, süd isə proteinlə zəngin olduğundan səhər yeyilməsi tövsiyə olunan qidalardandır. Bundan başqa, qidaya faydalı yağlar və çərəzlər də əlavə edilməlidir. Gün ərzində liflə zəngin yeməklərdən mümkün qədər çox istifadə olunmalıdır, çünki liflərlə zəngin qidalanma gün ərzində toxluq hissi yaradır, enerji verir və qanda şəkəri yüksəltmir. Səhər yeməyi zamanı yulaf və çərəzlər çox gözəl lif qaynağıdır. Bununla yanaşı, göyərtidən istifadə etmək də məsləhətdir. Məsələn, şüyüd, cəfəri kimi bitkilər orqanizmi toksinlərdən təmizləyir”.

Diyetoloqun dediyinə görə, yeməyə hər kəsin sevdiyi meyvə və meyvə qurularını da əlavə etmək olar. Səhər yeməyinin balanslı olması orqanizm üçün faydalıdır. Ona görə də səhər yeməyi çox əhəmiyyətlidir.

# 64 yaşlı Hollivud ulduzu gənc qadınla evlənir



64 yaşlı Hollivud ulduzu Mel Gibson evlənir. Aktyor karantin rejimi sona çatdıqdan sonra 6 ildir birlikdə yaşadığı Rozalinda Ross ilə nikah masasına əyləşəcək. Qeyd edək ki, Mel və Rozalindanın Lars adlı oğulları var. O, 2017-ci ildə dünyaya gəlib.

*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**

**“Azərbaycan” nəşriyyatında çap olunur**

***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**